www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 29 mart 2024-cü il Cümə № 54 (8427) Qiymәti 60 qəpik

**Xəbər**

## "YAP bu deputatlarından imtina edir" iddiası

yazısı səh.5-də

**Gündəm**

### "Metsamor" AES regionu təhdid edir



Ermənistan atom elektrik stansiyasının istismar müddəti başa çatdıqdan sonra yeni enerji blokunu işə salmağı planlaşdırır

yazısı səh.6-da

### Fransa nəşrinin Azərbaycana qarşı təxribatı

yazısı səh.4-də

### İsveçərədən ölkəmizə 105 min manata kim qol saatı gətirib?

yazısı səh.5-də

### KTMT-nin Baş katibi İrəvandan gileyləndi

yazısı səh.4-də

### Vaşinqtonun təhlükəli Cənubi Qafqaz planı

yazısı səh.8-də

### Bakının tələbinə ermənilər referendumda "yox" desə...

yazısı səh.9-da

### Xoşbəxt dövlətlər sırasında 101-ci yerimiz - reaksiyalar

yazısı səh.10-da

### "Crocus"dakı terror azərbaycanlıları işsiz qoya bilər

yazısı səh.11-də

### ABŞ və Aİ Bakıya qarşı hansı təlimatlar hazırlayır?

yazısı səh.12-də

### Qızdırmalı virusun ölkəmizdə yayılma riski

yazısı səh.14-də

# "BAKI KİYEVƏ SİLAH VERİR" YALANINDA QƏRB İZİ

Müdafiə Sənayesi Nazirliyi erməni iftiralarını təkzib etdi, rəsmi Moskva isə "əsas odur ki, İrəvanın Ukraynaya silah tədarükü ilə bağlı məlumatlar yayılmasın" eyhamını vurdu - Rusiya-Azərbaycan münasibətlərini kim baltalamağa çalışır?



yazısı səh.4-də

**Ramazan ayının 19-cu günü**

İftar 19.17 İmsak 05.00-dək (Bakı)

19-cu günün duası: "İlahi, Ramazan ayında olan bərəkətlərdən mənim qismətimi artıq et! Bu ayda xeyir əməllərin yolunu mənim üçün asanlaşdır! Və bu ayda olan yaxşı əməllərin qəbul olmasından məni məhrum etmə! Ey açıq-aşkar haqqın tərəfinə Yol Göstərən!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## Talıbovların Naxçıvana geridönüşü, yoxsa...

İddia olunur ki, son zamanlar Talıbovlara münasibət yumşalıb, bir sıra obyektləri, daşınmaz əmlakları qaytarılıb, muxtar respublikanı tərk etmələrinə qoyulmuş qeyri-rəsmi qadağa götürülüb yazısı səh.5-də



### Fazil Mustafa 1 il əvvəl məruz qaldığı sui-qəsddən yazdı

yazısı səh.3-də



Anders Foq Rasmussen

### NATO-nun keçmiş baş katibi Ermənistandan rüşvət alıb

yazısı səh.7-də



*DTX rəisi Əli Nağıyev:*

### "Fransa Cənubi Qafqazı yenidən müharibə meydanına çevirməyə çalışır"

yazısı səh.3-də




## Ombudsman Xankəndidə yaşayan ermənilərlə görüşdü

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Xankəndi şəhərində erməni əsilli sakinlərlə görüşüb.**

Ombudsman Aparatından verilən xəbərə görə, o, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həssas əhali qrupları üçün yaradılmış sığınacağa da baş çəkib.

S.Əliyeva müəssisədə, eləcə də müəssisədən kənarda yaşayan və xidmətlərdən faydalanan erməni əsilli sakinlərin hüquq və azadlıqlarının təmini vəziyyəti ilə maraqlanıb, ombudsmanın səlahiyyətləri barədə ətraflı məlumat verib. Eləcə də psixoloq və sosial işçilər tərəfindən sakinlərə göstərilən sosial xidmətlər, qida təminatı monitorinq olunub.

Qəbul edilmiş şəxslərin müraciətləri dinlənilib və onlar göstərilən münasibətdən, yaradılmış şəraitdən razılıq ediblər.

Başçəkmə zamanı ombudsmanın 24 saat fəaliyyət göstərən 916 Çağrı Mərkəzi barədə məlumatı özündə əks etdirən plakatlar müəssisəyə təqdim olunub.




## Marketlərdə parkinq pullu oldu - 100 manat...

**Paytaxtdakı iri supermarketlərdə parkinqlər pulu olacaq.**

Bakupost.az xəbər verir ki, artıq "Bravo" supermarketi bununla bağlı qiymətləri açıqlayıb.

Belə ki, supermarketin dayanacağında ilk 2 saat müştərilər üçün pulsuzdur. 2-4 saat 5 AZN, 4-6 saat 7 AZN, 6-10 saat 10 AZN, 10-24 saat 20 AZN, aylıq abunə olmaq üçün isə 100 AZN ödəniş tələb olunur.

Qeyd edək ki, Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) balansında olan yeraltı parklanma məntəqələrində parklanma ilə bağlı yeni tariflər müəyyənləşib. Lakin yeni parklanma qiymətləri baha olduğundan bir neçə gündür ki, bu, cəmiyyətdə geniş müzakirələrə səbəb olub. Bununla yanaşı, Bakı Dəmir Yolu Vağzalı yaxınlığında, Süleyman Rəhimov küçəsi ilə Mirəli Qaşqay küçəsinin kəsişməsində yerləşən avtodayanacaq stansiyasında da parklanma qiymətləri bahalaşıb.

## İranlıya casusluğa görə 12 illik həbs



**Bakı Ağır Cinayətlər Məhkəməsində Azərbaycan ərazisində casusluqda ittiham olunan İran vətəndaşı Qaedi Məhəmməd Nəcəf oğluna hökm oxunub.**

Məhkəmə onu cəzasını ciddi rejimli koloniyada çəkməklə 12 il azadlıqdan məhrum edib.

Ötən ilin martında Azərbaycan Dövlət Təhlükəsizliyi Xidməti əcnəbi vətəndaşın saxlanılması barədə bildirmişdi.

Qeyd olunurdu ki, Qaedi (1994-cü ildə anadan olub) Azərbaycanın təhlükəsizliyinə zərər vurmaqdan ötrü istifadə məqsədilə dövlət sirri təşkil edən informasiyanı toplamaq tapşırığı alıb.

Əsasən söhbət hüquq-mühafizə orqanlarının əməkdaşları haqqında şəxsi məlumatlar, onlarla şəxsi münasibətlərin qurulması və onların xarici kəşfiyyat ilə gizli əməkdaşlığa cəlb edilməsinə dair informasiyadan gedir.

O, Azərbaycan Cinayət Məcəlləsinin 276-cı (casusluq) maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilib.

❑ "Turan"

# Bakıda bu səbəbdən torpaq kəskin ucuzlaşdı



**1 oktyabr 2023-cü ildən etibarən kənd təsərrüfatlı təyinatlı torpaqlarda tikilən evlərə qaz, su və işıq xətlərinin çəkilməsi qadağan edilib. Bu isə Bakıətrafı qəsəbələrdə ev tikmək məqsədilə satışa çıxarılan kənd təsərrüfatı təyinatlı torpaqların kəskin ucuzlaşmasına səbəb olub. Müşahidələr onu göstərir ki, "makler" adlandırılan şəxslərin əlində olan torpaqlar kütləvi şəkildə satışa çıxarılıb. Qiymətlərdə baş verən dəyişikliyin bununla əlaqəli olduğu güman edilir.**

Paytaxta yaxın ərazilərdəki boş torpaqlarla bağlı müşahidə edilən dəyişikliklə əlaqədar əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev "Yeni Sabah"a açıqlama verib. O qeyd edib ki, tələbat azaldığı üçün qiymətlərin də aşağı düşməsi normaldır:

"Bakı, Abşeron və paytaxta yaxın ərazilərdə yüz minlərlə çıxarış ala bilməyən fərdi həyət evləri və çox sayda torpaq sahələri var. Bu ərazilərə çıxarışların verilməməsinin əsas səbəbi təyinatlarının yaşayış üçün yox, kənd təsərrüfatı, əkin, biçin təyinatlı olmasıdır. Torpaqlar yaşayış məntəqəsi təyinatlı olmadığına görə çıxarışlar verilmir. Yeni qərara əsasən 1 oktyabrdan sonra çıxarışı olmayan torpaqlarda inşa edilən tikililərə kommunal xətlərin çəkilişi qadağan olunub. Bu səbəbdən çıxarışlı torpaq sahələrinə tələbat çoxaldı və onların qiyməti artdı. Digər təyinatlı torpaqlara tələb azaldığı üçün bu ərazilər kütləvi şəkildə satışa çıxarılıb. Qiymətlərdə isə enmələr müşahidə olunur".

**Ekspert bildirib ki, gələcəkdə bu tipli torpaq sahələrinin təyinatı dəyişdirilə bilər:** "Həmin ərazilərə tələbatın azalmasına səbəb bu torpaq sahələrinin yaşayış üçün yararsız olmasıdır. Orada hansısa formada tikinti işləri aparılsa da, kommunikasiya xətlərinin çəkilməsi qadağandır. Tələbatın az olması onların kütləvi formada satışa çıxarılmasına səbəb olur. Gələcəkdə bu cür torpaqların təyinatlarında dəyişiklik ola bilər. Torpaqların təyinatlarının dəyişilməsi və yaşayış məntəqəsi çıxarışlı torpaqlara çevrilməsi mümkün olarsa, tələbatın və qiymətlərin artması da gözlənilir".




## "Azneft"ə yeni baş direktor təyin edildi

**Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) "Azneft" İstehsalat Birliyində (İB) kadr dəyişikliyi olub. Şahmar Hüseynov müvafiq əmrlə İstehsalat Birliyinin baş direktoru vəzifəsindən azad edilib.**

Onun əvəzinə "Umid Babək Əmliyyat Şirkəti"nin Azərbaycandakı filialının direktoru Qurbanov Əli Qurban oğlu "Azneft" İB-ə yeni baş direktor təyin edilib.

Qeyd edək ki, Q.Qurbanov əmək fəaliyyətinə 1991-ci ildə "28 May" adına Neft Qaz Çıxarma İdarəsində 4-cü dərəcəli neft-qaz çıxarma operatoru kimi başlayıb və 1998-ci ilə qədər həmin idarədə Özül rəisi vəzifəsində çalışıb. 1998-ci ildən fəaliyyətini BP şirkətində davam etdirib.

2011-ci ildən başlayaraq ARDNŞ-nin baş ofisində neftin, qazın hasilatı və nəqli üzrə vitse-prezidentin neft-qaz hasilatı üzrə müavini vəzifəsində fəaliyyət göstərib. Qeyd edək ki, Ş.Hüseynov 2019-cu ilin dekabr ayından birliyə rəhbərlik edirdi.

## Türkiyədə 39 küçəyə şəhidlərimizin adı verilib



**Qardaş Köməyi Platforması və Kahramanmaraşın Türkoğlu Bələdiyyəsinin təşkilatçılığı ilə Türkoğlu bölgəsində qurulmuş 453 ev tipli konteynerdən ibarət Qardaş Köməyi Məhəlləsində 39 küçəyə işğaldan azad olunmuş şəhərlərimizin və şəhidlərimizin adı verilib.**

Modern.az xəbər verir ki, bu barədə MÜSİAD Azərbaycan İdarə Heyətinin sədri Rəşad Cabirli öz "X" hesabında yazıb.

"Əməyi keçən hər kəsdən Allah razı olsun! 6 fevralda əsrin fəlakəti adlanan zəlzələdə həyatını itirən qardaşlarımıza Allahdan rəhmət diləyirik. Rəbbim bir daha pis gün yaşatmasın", - R.Cabirli yazıb.

Qeyd edək ki, ötən il Türkiyədə əsrin fəlakəti adlandırılan zəlzələnin baş verməsindən sonra Azərbaycan bölgəyə yardımlar edib. Eyni zamanda Azərbaycan qeyri-hökumət təşkilatlarının yaratdığı Qardaşlıq (Yardım) Platforması tərəfindən Türkoğlu rayonundakı logistika mərkəzində 453 konteynerdən ibarət Azərbaycan-Türkiyə Qardaşlıq Müvəqqəti Sığınacaq Mərkəzi yaradılıb.

Kondisionerdən çarpayıya, soyuducudan xalçaya qədər bütün interyer ləvazimatları azərbaycanlı iş adamları tərəfindən təmin edilib və 1700 zəlzələ qurbanının məskunlaşdığı müvəqqəti sığınacaq mərkəzində 39 küçəyə Azərbaycanın ən çox itki verdiyi şəhərlərin və şəhidlərin adı verilib.

Küçələrdə Xocalı, Qarabağ, Laçın, Gəncə, Şuşa, Füzuli, Bərdə, Tərtər, Ağdam şəhərləri və Mübariz İbrahimov, Məmmədov Murad, Əhmədov Elbrus kimi şəhidlərin adları yaşadılır.



## "Qarabağ" bu gün 11-ci dəfə çempion ola bilər

**"Qarabağ" bu gün ölkə çempionluğunu təmin edə bilər. 28-ci turda Ağdam təmsilçisi "Kəpəz"lə qarşılaşacaq. Qurban Qurbanovun komandası qələbə qazanacağı halda xalını 69-a yüksəldəcək.**

"Qarabağ"ın ən yaxın izləyiciləri "Sabah" və "Neftçi" qələbə qazansa belə, "köhlən atlar" çempion olacaq. Çünki sona 8 tur qalmış aradakı xal fərqi 26 olacaq. Rəqiblərin isə mövsümün sonuna qədər bu fərqi aradan qaldırması mümkün deyil.

Ağdamlılar bununla da tarixində 11-ci dəfə Azərbaycan çempionu adını qazanacaq.

Qeyd edək ki, Tofiq Bəhramov adına Respublika stadionunda keçiriləcək "Kəpəz" - "Qarabağ" matçı martın 29-u, saat 19:00-da başlanacaq.



## Dollara tələbat niyə artıb?

**"2024-cü ilin əvvəlindən bəri valyuta bazarında tarazlıq qorunub. İlin ötən dövründə Mərkəzi Bank tərəfindən təşkil edilən valyuta hərraclarının bir neçəsində valyutaya tələb artıb".**

Bu, Azərbaycan Mərkəzi Bankının faiz dəhlizinin parametrləri haqqında məlumatında bildirilib.

Qeyd edilib ki, buna səbəb dövlət investisiyaları və özəl sektorun istehlakının aktivləşməsi nəticəsində idxalın maliyyələşməsinin genişlənməsidir: "2024-cü ilin 2 ayında qeyri-neft investisiya qoyuluşları ötən ilin müvafiq dövrü ilə müqayisədə 17.1% artıb ki, bunun da əhəmiyyətli hissəsi daxili mənbələr hesabına maliyyələşib. Bu, qeyri-neft idxalı üzrə qabaqcadan ödənişlərin artması ilə müşayiət olunub. Qeyd olunanlar idxal mənşəli valyuta tələbinin artımını təsdiqləyir. Ümumilikdə, valyuta bazarı profisitli tədiyə balansı şəraitində fəaliyyət göstərir".

Yeni MÜSAVAT
N 54 (8427) 29 mart 2024

# "Məni öləcəyim gün və ya an qorxutmadı..."

## Fazil Mustafa bir il əvvəl məruz qaldığı sui-qəsddən yazdı

**"Bir neçə dəfədir ki, televiziyadan izləyirəm. Son illərdə baş verən Ermənistan-İran mənbəli Azərbaycana yönəlik terror hadisələrini şərh edən süjetlər verirlər. Sonuncu fakt kimi Tehranda səfirliyimizə hücumdan bəhs edirlər.**

Bu süjetlərdə 28 mart 2023-cü ildə baş verən terror hadisəsinin isə sanki çox uzaq keçmişdə olması və əhəmiyyətsizliyi səbəbi ilə unudulduğunu sezirsən. Hazırda bu terroru həyata keçirənlərin məhkəmə prosesi davam edir. İran xüsusi xidmət orqanından 30 min ABŞ dolları aldıqlarını, qrup halında verilən təlimat əsasında terroru həyata keçirdiklərini etiraf edirlər. Məqsəd tam aydındır: öz ölkəsinin milli maraqlarını və dəyərlərini qorumaq istəyənlərin susdurulması ilə yanaşı dərin bir ictimai xof yaratmaq. Yəni anladırlar ki, biz istənilən vaxt öz içinizdən hazırladığımız terrorçu dəstələrimizlə ölkənizdə qarışıqlıq yaratmağa qadirik. Məhkəmə prosesinin gedişində terrorçu qrupun üzvləri yalnız şəxsimə deyil, həm də Azərbaycan dövlətinə olan nifrətlərini gizlətmirlər". **Deputat Fazil Mustafa ona sui-qəsdin ildönümü ilə bağlı yazısında belə qeyd edir. F.Mustafa yazır**: "Tale elə gətirib ki, məmləkətin son qırx ilinin ən təlatümlü siyasi hadisələrinin içində yer almışam və bütün siyasi labirintlərin içində dəfələrlə ölüm riskini adlayaraq sağ qalmışam. Məgər 1990-cı ilin 19 yanvardan 20 yanvara keçən gecə baş verən qanlı hadisələrin qurbanına çevrilməmiz bir an məsələsi deyildimi? Ya ötən əsrin 90-cı illərində Türkiyəyə mühacirətə gediş məqamında yaşadıqlarım? Yaxud yenidən düşmənlə üz-üzə səngərdə zabit kimi hərbi xidmətdə qarşıma çıxan ağır sürprizlər? Bütün bunlardan daha dəhşətlisi 28 mart 2023-cü il tarixindən evimin qarşısında baş verən terror aktından yaralı vəziyyətdə qurtuluşum. Əlbəttə, bunların hamısında "qoruyucu mələyin", yəni anlaşılan bir dildə "ələhəzrət təsadüfün" rolunun xatırlanması vacib olsa da, bəlkə ölümə biganəliyimin də izahı mümkün olmayan bir rolu olduğunu vurğulamaq istərdim. Mən həyatı məhz faydalı və mənalı yaşadığıma görə çox sevirəm, ancaq hər zaman Nazim Hikmətin də söylədiyi "Ölümdən o yana bir kənd varmı, Bayramoğlu?" kimi möhtəşəm sualın üzərində düşüncələri aktual olaraq qorumaqdayam".

**Deputat yazır ki, sui-qəsd baş verəndən sonra kimsə ona şəxsi düşməninin olub-olmaması barədə sual verməyib:** "Dostlarla şəhərdə Ramazan ayının orucunu açıram, evə dönürəm və məlum olur ki, aylardır məni izləyən terrorçu nəticə: artıq bizləri bir müsəlmanın adil insan kimi yetişməsi qatil kimi yetişməsindən daha çox təəccübləndirir. Bu qatillərin də təsnifatını doğru aparmaq lazım: İnsan qatilləri və Fikir qatilləri. Azərbaycanın spesifikası həm də budur ki, burada dinsundan həzz alan vətəndaşlar, soydaşlar, dindaşlar özləri də anlamadan ərəb ölkələrinin, İranın, Əfqanıstanın, bir sözlə, Müsəlman Şərqinin yaşadığı fəlakətlərin eynisinin bu gözəlim məmləkətə daşınmasına yaşıl işıq yandıranlar olacaq.




İran xüsusi xidmət orqanından göndərilən maddi vəsait və təlimat əsasında evimin qarşısında qurulmuş pusqudan gecənin qaranlığında birbaşa maşınıma yaxın məsafədən atəş açır. Səkkiz avtomat gülləsindən ikisi vücudumu dəlib keçir. Maraqlıdır ki, bu əmri verən və icra edən adamlar da oruc tutur, namaz qılır və həm də rahatlıqla oruc tutan, namaz qılan başqa bir müsəlmanı öldürmək istəyir. Həm də evinin önündə, ailəsinin gözü qarşısında. Arqument də birdir: "Fikirləri, çıxışları bizi narahat edir".

Əlbəttə, mən bu Vətənə düşmən olan, onun dünyəvi dövlət quruluşunu təhdid edən, məzhəbi, dini maska kimi istifadə edərək başqa dövlətin maraqlarına xidmət edən hər bir satqını, xaini, cahili narahat edən bir azərbaycanlıyam. Həm də narahat olduqları fikirlərin müəllifi yalnız mən deyiləm, bu milləti aydınlığa qovuşdurmaq istəyən bütün dünyasını dəyişmiş milli şəxsiyyətlərimizdir, biz onların yüz il öncəki fikirlərinin, sadəcə, tərcümanıyıq.

Azərbaycanda və çevrəmizdə baş verən bu kimi hadisələrdən çıxan ibrətamiz çiləri ya Sünni dininin, ya da Şiə dininin təmsilçiləri olaraq görə bilirsən. Həzrəti Məhəmmədin yaşadığı, anlatdığı İslam dininə bağlı mömin dindar tipologiyası da ölkəmizdə nadir nüsxəyə çevrilməkdədir.

Müsəlman həmrəyliyinin özü də mahiyyətcə iki cürdür: birincisi qatil müsəlmanların həmrəyliyi, ikincisi adil müsəlmanların həmrəyliyi. Nə yazıq ki, bu gün ittihadi-islam anlayışı daha çox qatil müsəlmanların üzərindən gerçəkləşməkdədir".

**Deputat daha sonra yazır:** "Məni öləcəyim gün və ya an qorxutmadı, qorxutmayacaq da. Çünki Vətən, Millət, Milli Dövlət cinahı və Aydınlıq davasında ölənlərin içində ömür yolu, yazısı, kitabı ilə yaşayan nəsillərimizin xatırlaması üçün şərəfli bir ad buraxacağımdan əminəm. Ancaq hər bir Vətən övladının Vətəndən ayrılan daşları ətəyindən tökük dünyanın yenilən üzünə diqqətlə baxması lazım. Xırda-xırda qumcuqların artıq dünyəvi dövlətimizi, milli kimliyimizi, gələcək ideallarımızı təhdid edən qum topasına çevrilməsinə bigənə qalan, müşahidəçi statu-

Vətənə daş kimi yük olanlarla, ona aydın, işıqlı baş kimi xidmət edənlərin mübarizəsi indi daha həlledici və ciddi mərhələyə qədəm qoyur. Bu millətin dilinin qıfılını açmış Mirzə Fətəlinin, dövlətini qurmuş Məhəmməd Əmin bəyin, səsinin ahəngini düzəltmiş Üzeyir bəyin, müstəqillik davasını aparmış Elçibəyin, dövlət müstəqilliyini mətanətlə qorumuş Heydər Əliyevin və ölkəni düşmən işğalından azad edərək orqanik bütövlüyünü təmin etmiş İlham Əliyevin Cümhuriyyət modelini xilafətə, imamətə, cəhalətə qarşı qorumağa hazırıqmı? Hanı o gözəlim himnimizdə təkrar-təkrar oxuduğumuz sözlər? "Namusunu hifz etməyə, Bayrağını yüksəltməyə, Cümlə gənclər müştaqdır!" Yalnızca gənclərmi? Unutmayaq ki, milli dövləti gənc olan millətlərin yaşından asılı olmayaraq hər bir fərdi də dövləti kimi müdrik bir gənc olmağa məhkumdur. Mənim milli ideyamın biri və birincisi böyüklərimizin əmanəti olan Cümhuriyyətimizi cəhalətə, qaragüruha qurban getməkdən qorumaqdır. Yaşadıqca, mən bu ideyaya müştağam!"

# "Ayıq-sayıq olmalıyıq"

## DTX rəisi Əli Nağıyev: "Fransa Cənubi Qafqazı yenidən müharibə meydanına çevirməyə çalışır"



**"Hazırkı geosiyasi vəziyyət Rusiya-Ukrayna müharibəsi və digər qanlı toqquşmalarla müşayiət olunur". Bunu Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi Əli Nağıyev "Respublika" qəzeti üçün yazdığı məqalədə bildirib.**

O qeyd edib ki, bu toqquşmalar dünya nizamına ciddi təsir göstərməklə yanaşı, əməliyyat şəraitinin mürəkkəbləşməsinə səbəb olur: "Beynəlxalq aləmdə gedən proseslər təbii ki, ölkəmizdən də yan keçmir və o da sirr deyil ki, Azərbaycanda mövcud sabitliyə və təhlükəsizliyə təhdid riskləri bu gün də var. Görünən odur ki, respublikamızın dünya miqyasında gündən-günə artan nüfuzu, həm siyasi, həm iqtisadi, həm də hərbi sahədə qazandığı ardıcıl qələbələr, o cümlədən Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması üçün yaranmış əlverişli şərait bir sıra Qərb ölkələrini, məqsədi bölgədə heç də sülh və sabitliyin təmin edilməsi olmayan və iki dövlətin sərhədində "müşahidə missiyası" adı altında fəaliyyət göstərən dairələri, xüsusilə Qarabağ münaqişəsinin nizamlanması prosesində vasitəçilik missiyasını üzərinə götürən, əslində isə birtərəfli mövqe tutaraq uzun illər ərzində Ermənistana himayədarlıq edən, ona hərtərəfli dəstək göstərən Fransanı ciddi narahat edir".

DTX rəisi bildirib ki, Fransa regionda sülhə dəstək vermək əvəzinə 30 ilə yaxın müddətdə Azərbaycan torpaqlarını işğal altında saxlamış və xalqımıza qarşı soyqırımı cinayətləri törətmiş Ermənistanı silah-sursatla təmin edərək orada öz hərbi missiyasını yaratmaqla revanşist hisslərin alovlanmasına rəvac verir, Ermənistanı yeni müharibəyə təhrik edir, Cənubi Qafqazı yenidən müharibə meydanına çevirmək planını reallaşdırmağa çalışır.

"Fransa hətta məqsədinə çatmaq üçün bütün bunlarla kifayətlənməyərək öz xüsusi xidmət orqanı nümayəndələri vasitəsilə müxtəlif şəxsləri məxfi əməkdaşlığa cəlb edib casus şəbəkəsi formalaşdırmaqla Azərbaycanın milli təhlükəsizliyinin zərərinə fəaliyyət göstərir. Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən bu fəaliyyət ifşa olunaraq dərhal və operativ şəkildə zərərsizləşdirilib, zəruri və adekvat addımlar atılıb. Əməliyyat şəraiti daim nəzarət altında saxlanılmaqla dövlətimizin təhlükəsizliyinə yönələn təhdidlərin qabaqlanması və qarşısının alınması istiqamətində müvafiq tədbirlər bundan sonra da görüləcək. Biz yeni çağırışlara və bölgəmizdə cərəyan edən mənfi təzahürlü proseslərin hər cür ssenarisinə daim hazır olmalı, təhlükəsizliyin etibarlı şəkildə təmin olunması məsələsində ayıq-sayıqlığımızı əldən verməməliyik", - deyə Əli Nağıyev yazıb.

**Ə.Nağıyev deyib ki, hazırda Dövlət Təhlükəsizliyi Xidməti dünya ölkələrinin 100-ə yaxın xüsusi xidmət orqanı ilə faydalı əməkdaşlıq edir:** "Belə ki, MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurası, Türk Dövlətlərinin Xüsusi Xidmət Orqanları Konfransı, həmçinin digər beynəlxalq təşkilatlarla ikitərəfli və çoxtərəfli formatda işgüzar əlaqələr qurulub".

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 54 (8427) 29 mart 2024

# "Bakı Kiyevə silah verir" yalanında Qərb izi

## Müdafiə Sənayesi Nazirliyi erməni iftiralarını təkzib etdi, rəsmi Moskva isə "əsas odur ki, İrəvanın Ukraynaya silah tədarükü ilə bağlı məlumatlar yayılmasın" eyhamını vurdu - Rusiya-Azərbaycan münasibətlərini kim baltalamağa çalışır?

**"Erməni teleqram kanallarında guya Azərbaycan tərəfindən Ukraynaya hərbi təyinatlı məmulatların göndərilməsinə dair məlumatların yayılmasına cəhdlər olunur. Bununla bağlı kütləvi informasiya vasitələrinin sorğusuna cavab olaraq bildiririk ki, bu kimi məlumatlar tamamilə fake və dezinformasiya xarakteri daşıyır".**

"Yeni Müsavat" bildirir ki, bunu Azərbaycan Müdafiə Sənayesi Nazirliyi bəyan edib. Nazirlik bildirib ki, erməni teleqram kanallarında əvvəllər də belə yalan və həqiqətə söykənməyən xəbərlərin yayılmasına cəhdlər olub. "Bu məlumatların heç bir əsası yoxdur və ciddi qəbul edilməməlidir. Bir daha bildiririk ki, Azərbaycan tərəfindən qeyd olunan istiqamətdə hər hansı hərbi təyinatlı məmulatlar göndərilməmişdir", - deyə məlumatda qeyd olunub. Maraqlıdır ki, bu yalan informasiya ilə eyni vaxtda Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova "Qərb Rusiyanın MDB ölkələri ilə birliyini pozmaq üçün aqressiv informasiya kampaniyalarından istifadə edir", - deyə açıqlama verib. Zaxarova deyib ki,



Qərb "obyektiv şəkildə formalaşmış birliyi Rusiyaya və qonşularımıza qarşı aqressiv informasiya kampaniyaları ilə pozmağa çalışır". M.Zaxarova hesab edir ki, informasiya məkanını gücləndirmək və qorumaq üçün maksimum qarşılıqlı əlaqəni təmin etmək Rusiya və MDB ölkələrinin ümumi maraqlarına uyğundur.

**"Azərbaycan tərəfi Ukraynaya silah tədarükü barədə məlumatı rəsmi şəkildə təkzib edib" - Zaxarova xatırladıb. O qeyd edib ki, Ukraynaya potensial silah tədarükü ilə bağlı bütün məlumatlar Rusiyanın müvafiq qurumları tərəfindən diqqətlə yoxlanılır və həmin ölkələrlə müzakirə olunur:** "Diqqətinizə çatdırım ki, Azərbaycan tərəfi sözügedən məlumatı rəsmən təkzib edib. Bir daha xatırladıram ki, biz həm də bu məsələ ilə bağlı sıx şəkildə əlaqə saxlayırıq".

"Əsas odur ki, İrəvanın Ukraynaya silah tədarükü ilə bağlı məlumatlar yayılmasın. Bu, lap ağ olar", - deyə o bildirib.

Aydındır ki, bu məlumat rəsmi Bakıya qarşı qurulan növbəti məkrli oyundur. Faktiki olaraq Rusiya-Azərbaycan münasibətlərini baltalamağa çalışırlar. Rəsmi Bakı Rusiya-Ukrayna müharibəsinin başladığı ilk gündən etibarən neytrallığını elan edib. Bununla belə, həm Rusiya, həm də Ukrayna tərəfi ilə təmaslar qurur. Azərbaycan tərəfi gərginliyin bitməsi, sülhün əldə edilməsi istiqamətində dəfələrlə vasitəçiliyini təqdim edib. Hətta hər iki ölkə başçısının Bakıda bir araya gəlməsi belə təklif olunub.

Azərbaycan bu günə qədər nə Rusiyaya qarşı Qərbin tətbiq etdiyi sanksiyalara qoşulub, nə də Rusiyanın işğal etdiyi Ukrayna ərazilərini tanıyıb. Əksinə, Azərbaycan Prezidenti İlham Əliyev çıxışları zamanı Ukrayna ərazilərinin işğala məruz qaldığını da deyib. Digər tərəfdən, rəsmi Bakı hazırda Ukraynaya ən çox humanitar yardım ayıran ölkələrdəndir. Bütün bu və digər səbəblər rəsmi Bakının Rusiya-Ukrayna müharibəsində neytral ölkə olduğunu və neytrallığına sadiq qaldığını sübut edir. Rəsmi Bakının neytrallığını şübhə altına almaq və ya elan etdiyi neytrallığa sadiq olmadığını dövriyyəyə buraxmaq Ermənistanın özbaşınalığıdır, yoxsa bu işin içində Zaxarovanın dediyi kimi, Qərb də var?

**Bu mövzuda "Yeni Müsavat"a danışan polkovnik Şair Ramaldanov hesab edir ki, kifayət qədər həssas məsələdir. Polkovnikin sözlərinə görə, Azərbaycan sözügedən münaqişəyə qoşulmayaraq mövqeyini aydın surətdə ifadə edib və bu günə qədər də həmin mövqedə qalmaqdadır:** "Əvvəla, Azərbaycanın Ukrayna ilə sıx əlaqələri var və münasibətlərin nəticəsidir ki, postsovet məkanında bu ölkəyə humanitar yardım edən ölkələrin önündəyik. Ona görə də erməni tərəfi saxta informasiyalar yayır. Sözsüz ki, məqsəd Rusiya ilə əlaqələrə xələl gətirməkdir. Halbuki Moskva da, Kiyev də görür - Azərbaycan onların sülh masasına oturması üçün təşəbbüs göstərməkdədir". **Onun fikrincə, ümumiyyətlə, Azərbaycan heç vaxt hər hansı coğrafiyada gedən münaqişədə tərəflərdən hansısa birini silahlandırmayıb:** "Sonuncu məsələyə də rəsmi səviyyədə cavab verilib, Moskvadan da Zaxarova açıqlama yaydı. Onun İrəvana ismarışı da təsadüfi deyildi, yəni istisna etmir ki, Ermənistandan Ukraynaya silah gedə bilər". Hərbi ekspertə görə, bu gün Azərbaycanın Rusiya-Ukrayna müharibəsinə münasibəti göz qabağındadır, ölkə Qoşulmama Hərəkatının üzvü olaraq da mövqeyini ifadə edib: "Biz nəyisə gizlətmirik, əgər dəstək veririksə, açıq şəkildə nümayiş etdiririk. Sadəcə, Ermənistan mediasının da iştirakı ilə yalan, böhtan tirajlanır".

**Siyasi ekspert Azad Məsiyevin** "Yeni Müsavat"a söylədiyinə görə, Azərbaycan Ukrayna ilə humanitar sahədə əməkdaşlıq etməkdədir. Ekspertin fikrincə, Qərb dünyası isə çalışır ki, bizimlə Rusiya arasında nifaq salsın: "Çünki ABŞ və Avropa Birliyi Rusiyanı dünya siyasi arenasından təcrid etməyə çalışır və bu prosesdə sərhəd ölkələrdən də istifadə etməyə cəhd göstərir. Azərbaycan özü silah alan ölkədir və bunu üçüncü dövlətə vermək niyyəti də yoxdur. Ən əsası isə Ukraynaya Qərbdən, NATO-dan silahlar verilir, müasir texnika verilir, Kiyevin Bakının silaha ehtiyacı yoxdur. Bizim o qədər potensialımız da yoxdur ki, Ukraynada gedən müharibədə Kiyevi silahla təmin edə bilək. Sadəcə, təbliğat kampaniyasıdır və əleyhimizə yönəlib". Onun sözlərinə görə, Azərbaycan-Rusiya əlaqələri inkişaf edir, müxtəlif sahələrdə əməkdaşlıq, ticarət dövriyyəsi artırılır, Moskva bəyannaməsinə söykənərək bu müttəfiqlik gücləndirilir, habelə iki dövlətin liderləri arasında qarşılıqlı etimad mövcuddur.

**Siyasi şərhçi Fuad Əliyev isə feyk xəbərlərin Qərbdən sifariş olunduğunu düşünür. Onun qənaətinə görə, informasiya erməni teleqram kanallarında tirajlansa da, emal olunması və təlimatı Avropadan gəlib:** "Hazırda hibrid müharibə gedir. Azərbaycan da Cənubi Qafqazda gedən mürəkkəb strateji oyunların içində bu informasiya müharibəsində iştirak etmək məcburiyyətindədir. Bununla çalışırlar ki, dövlətlərarası münasibətləri gərginləşdirsinlər. Etiraf etmək lazımdır ki, informasiya üzərindən müxtəlif ölkələrin əlaqələrini poza da bilirlər. O baxımdan, belə saxta məlumatların yayılmasına həmişə hazır olmaq lazımdır. İlk dəfə deyil ki, bu dezinformasiyanı yayırlar".

**F.Əliyev Rusiya ilə Azərbaycan arasında müxtəlif kanallarla təmaslar olduğunu bildirir:** "Rusiyadakı rəsmilər bilirlər ki, Bakı Kiyevi silahlandırmır. Sadəcə, cəfəngiyyatdır. Üstəlik, müharibədən çıxmış ölkəyik, biz niyə başqa dövlətin müharibəsində onu silahla təmin edək ki? NATO-nun nəhəng dövlətləri Ukraynaya bahalı, ağır silahlar göndərir, Azərbaycanın silahına ehtiyac belə qalmır. Hərçənd Qərbdən gələn silahlar da Kiyevə ərazilərini geri almağa kömək etmir. Azərbaycanın humanitar yardımını isə Şarl Mişel də, Bakıda olarkən Alyansın baş katibi Yens Stoltenberq də xüsusi vurğulayıblar. Ona görə Azərbaycanın Ukraynaya göndərdiyi yüklərdə nələrin olduğunu Qərb də bilir, Rusiya da..."

❑ **Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**

# Fransa nəşrinin Azərbaycana qarşı təxribatı

**"Əldə etdiyimiz məlumatlara görə, bu gün işğal olunmuş "artsax" respublikasının bütün ərazisində 10 və ya 11 erməni qalıb".**




Moderator.az xəbər verir ki, bunu Fransanın "Le Figaro" qəzetinə müsahibəsində Azərbaycan ərazisində ləğv olunmuş separatçı-terrorçu rejimin sonuncu qondarma "prezidenti" Samvel Şahramanyan deyib.

"Onlar hərəkət edə bilməyən və ya yaxınlarının məzarlarının yanında qalmaq istəyən əlil və ya xəstə insanlardır. 2023-cü ilin sentyabrında baş verən məcburi köçdən (əslində könüllü) sonra orada qalan "artsax" vətəndaşlarının sayı daha çox olub. Lakin sonra orada qalmağa qərar verən onlarla erməni də Qırmızı Xaç sayəsində Ermənistana gəlməyi seçib", - deyə Şahramanyan bildirib.

Xatırladaq ki, 19-20 sentyabr 2023-cü ildə Azərbaycan Ordusunun lokal əməliyyatı sayəsində keçmiş Dağlıq Qarabağ ərazisinin qalan hissəsi də azad olunduqdan sonra Şahramanyan 2024-cü il yanvarın 1-dək qondarma rejimin bütün qurumlarının ləğv ediləcəyi haqda "fərman" imzalamışdı. Lakin özü də Ermənistana keçdikdən sonra İrəvanda separatçı-terrorçu rejimin qurumlarının fəaliyyətini bərpa etməyə cəhdlər göstərməyə başlayıb...

# KTMT-nin Baş katibi İrəvandan gileyləndi

**KTMT-nin Baş katibi İmanqali Tasmaqambetov bildirib ki, Ermənistan son vaxtlar katibliyin işində iştirak etməyib, lakin təşkilatdan çıxmaq barədə bildiriş göndərməyib.**



Rusiyanın "Kommersant" nəşri yazır ki, KTMT-nin Baş katibi quruma yeni ölkələrin də qoşula biləcəyini istisna etməyib. "İrəvan həqiqətən də bu yaxınlarda KTMT katibliyinin işində iştirak etməyib... Ermənistan Respublikası rəsmilərinin qeyd olunan bəyanatlarına gəlincə, bildirim ki, katibliyə İrəvandan KTMT üzvlüyünün dayandırılması ilə bağlı heç bir rəsmi müraciət daxil olmayıb", - təşkilatın baş katibi "Milli Müdafiə" jurnalının baş redaktoru İqor Korotçenkoya müsahibəsində bildirib.

O, həmçinin deyib ki, katiblik mütəmadi olaraq İrəvandakı müvafiq strukturları qəbul edilən qərarlar barədə məlumatlandırır. Tasmaqambetovun sözlərinə görə, KTMT iştirak üçün çox əlverişli şərtlər, o cümlədən böhranlı vəziyyətlərin həlli üçün siyasi və diplomatik üsullara üstünlük verir.

Qeyd edək ki, hazırda KTMT-yə Ermənistan, Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya və Tacikistan daxildir.

Fevralda Ermənistanın baş naziri Nikol Paşinyan Ermənistanın KTMT-də iştirakının dondurulduğunu bəyan edib. Bundan sonra Ermənistan hakimiyyəti Rusiya sərhədçilərinin İrəvanın Zvartnots hava limanını tərk etməsi barədə Moskvaya müraciət edib. Martın 12-də Nikol Paşinyan Ermənistanın suveren ərazisinin harada yerləşməsi və KTMT-nin məsuliyyət zonasının harada olması ilə bağlı təşkilatın tərəfdaşlarının baxışı İrəvanı qane etmədiyi təqdirdə Ermənistanın KTMT-dən çıxmasının mümkünlüyündən danışıb. Rusiya Xarici İşlər Nazirliyi bu cür ritorikanı təhqiramiz adlandırıb.

❑ **"Yeni Müsavat"**



# İsveçrədən ölkəmizə 105 min manata kim qol saatı gətirib?

**Bu ilin yanvar ayında Azərbaycana dünyanın müxtəlif ölkələrindən fərqli göstəricilərdə qol saatları gətirilib.**

Yeniavaz.com açıqlanan rəsmi məlumatlara istinadən bildirir ki, idxal olunan ən bahalı saatlar İsveçrədən gətirilib.

Yanvar ayı ərzində Azərbaycana İsveçrədən 6 ədəd qiymətli metaldan korpusu olan elektriklə işləyən mexaniki indikasiyalı qol saatları gətirilib. Bir ədəd belə saatın orta gömrük dəyəri 9 min 988 dollar (16 980 manat) olub. Bundan başqa, İsveçrədən 4 ədəd qiymətli metaldan korpusu olan avtomatik qurulma ilə işləyən qol saatları gətirilib ki, bunların da bir ədədinin orta gömrük dəyəri 15 477 dollar (26 312 manat) olub.

Qiymətli metal korpusu olan daha 3 saat isə Böyük Britaniya və Çindən gətirilib. Böyük Britaniyadan gətirilən 2 saatın gömrük dəyəri 1 260 dollar, Çindən gətirilən 1 saatın gömrük dəyəri isə 380 dollar olub.

Onu da bildirək ki, yanvar ayında Çindən Azərbaycana 76 min 615 ədəd adi korpuslu saat idxal olunub. Bir ədəd belə saatın gömrük dəyəri 97 sent (1,6 manat) olub. İsveçrədən də 8 ədəd adi korpuslu saat gətirilib ki, onun da bir ədədinin gömrük dəyəri 5 min 495 dollar (9 342 manat) olub.

Bunlardan başqa, Türkiyədən gətirilən 124 ədəd adi korpuslu elektriklə işləyən mexaniki indikasiyalı qol saatlarının bir ədədinin orta gömrük dəyəri 36 dollar təşkil edib.




# Talıbovların Naxçıvana geridönüşü, yoxsa...

## Son zamanlar Talıbovlara münasibət yumşalıb, bir sıra obyektləri, daşınmaz əmlakları qaytarılıb, muxtar respublikanı tərk etmələrinə qoyulmuş qeyri-rəsmi qadağa götürülüb

**Bir neçə gün əvvəl Naxçıvan Ali Məclisində qəribə bir gərginlik yaşanıb. Muxtar respublikadakı mənbələrdən Azpolitika.info-ya daxil olan məlumata görə, Ali Məclisin sabiq rəhbəri Vasif Talıbovun böyük oğlu Rza Talıbov əvvəlcədən razılaşdırmadan Prezidentin xüsusi nümayəndəsi Fuad Nəcəfli ilə görüşmək istəyib. Rza Talıbovun avtomobilinin Ali Məclisin həyətinə, özünün isə binaya buraxılması çaşqınlıq yaradıb. Buna görə hətta mühafizə polisinin əməkdaşlarına töhmət verildiyi deyilir.**

Məlumatda bildirilir ki, Fuad Nəcəfli Rza Talıbovu qəbul etməyib, Ali Məclisdə indi əsas səlahiyyətli şəxs olan Anar İbrahimovla görüşməyi tövsiyə edib. Rza Talıbov da Ali Məclis sədrinin müavini Anar İbrahimovun qəbulunda olub. Onun hansı məsələni müzakirə etmək üçün Ali Məclisə gəldiyi barədə məlumat verilmir.

Sayt yazır ki, görünür, Rza Talıbov məhz atasının razılığı ilə belə bir görüş istəyib, böyük ehtimalla, məqsədi hansısa məsələnin müzakirəsi olub.

Qeyd edək ki, son zamanlar Talıbovlara münasibətin bir qədər yumşaldığı, Naxçıvandakı bir sıra obyektlərin, daşınmaz əmlakların Talıbovlara qaytarıldığı, onların muxtar respublikanı tərk etmələrinə qoyulmuş qeyri-rəsmi qadağanın götürüldüyü bildirilir. "Təsadüfi deyil ki, Vasif Talıbov istefaya göndəriləndən sonra ilk dəfə xaricə buraxılıb - Novruz tətili günlərini öz əyan-əşrəfi ilə birlikdə Türkiyədə keçirib", - deyə sayt iddia edir.

"Yeni Müsavat"ın Naxçıvandakı mənbələri də Vasif Talıbovun Novruz tətili günlərində Türkiyədə olduğunu təsdiqləyib, ona İstanbul şəhərinə müalicəyə getmək üçün izn verildiyini qeyd edib. Bildirilir ki, Vasif Talıbov vəzifədən uzaqlaşdırılandan sonra onun əmlakları, varidatı siyahılaşdırılıb, "milliləşdirilməsi" üçün ardıcıl addımlar atılır. Kimsəyə sirr deyil ki, Talıbov 30 ilə yaxın "xan"lığı dövründə olduqca böyük, inanılmaz dərəcədə geniş, az qala sərhədsiz sərvət toplaya bilib. İndi isə həmin əmlakların əldə saxlamaq qayğıları Vasif Talıbovu xəstəhal duruma gətirib. Daha onun telefon zənglərinə "buyurun, cənab sədr" cavabı bir tərəfə, heç cavab verən də yoxdur. "Xan"ın Naxçıvandakı imarətində bütün günü var-gəl etdiyi, tez-tez özünün irili-xırdalı fotoportretləri olan böyük bir otağa girib diqqətlə özünün əkslərinə baxdığı da gələn məlumatlardan biridir.

Qeyd olunur ki, Vasif Talıbov vəzifədə olarkən həmin portretlər dövlət idarə və təşkilatlarında, irili-xırdalı mağazalarda yuxarı başdan asılıbmış. Vasif Talıbov vəzifədən çıxarılandan sonra oğlu Rza Talıbov mümkün olan hər yerdən - idarə, təşkilat, mağazalardan atasının bər-bəzəkli çərçivəli portretlərini yığıb və imarətlərinə gətirib. Portretlərin sayı o qədər çox olub ki, imarətlərinin iri bir otağını onların saxlanılması üçün ayırıblar. Həmin otaq Vasif Talıbovun tez-tez baş çəkdiyi guşəyə çevrilib. İşsiz qalan Vasif Talıbovun hər gün bir neçə saatını həmin otaqda keçirməsi, özünün portretlərinə baxıb fikrə daldığı xəbəri var. Vəzifəsizliyin Vasif Talıbovun durumuna çox pis təsir etdiyi, bu səbəbdən ona İstanbula müalicə üçün getməyə icazə verildiyi bildirilir.

Onun oğlu Rza Talıbovun xəbər etmədən Ali Məclisə getməsi məsələsinə gəlincə, mənbəmiz bu məlumatı da təsdiqləyir. Belə ehtimal var ki, Rza Talıbov əmlak məsələləri ilə bağlı məhkəmə davalarına görə Ali Məclisdə olub. Qeyd olunur ki, hazırda Naxçıvan məhkəmələrində Vasif Talıbov və onun komandasına daxil olan vəzifəli şəxslərə qarşı 30-a yaxın iddia var. Cavabdehlər sırasında Rza Talıbovun özünün də olduğu qeyd edilir.

Talıbovlara qarşı iddiaları Naxçıvandan olan, vaxtilə Vasif Talıbovun göstərişi ilə biznesləri, əmlakları əllərindən alınan, özləri Naxçıvandan didərgin salınan iş adamları qaldırıb. Vasif Talıbov Ali Məclis sədri olduğu dönəmdə vəzifəsindən sui-istifadə edərək iş adamlarının sənədli-sübutlu əmlaklarını - istehsal müəssisələrini, bazalarını, bazarlarını, restoranlarını, mağazalarını qanunsuz olaraq əllərindən alıb. Həmin əmlakların dağıdılması üçün icra başçılarına göstərişlər verib. İcra başçıları da göstərişin qanunsuz olduğunu bilə-bilə əmlakları buldozerin qabağına verib yerlə bir ediblər. Hətta elə sahibkarlar var ki, onların əmlakı dağıdılandan sonra Vasif Talıbovun göstərişi ilə onlardan xarabazara çevrilmiş əmlaklarının qalıqlarının daşınması haqqı da tələb olunub, alınıb. İş adamlarına deyiblər ki, əmlakının dağıdılması zamanı əmələ gələn qalaq-qalaq zibilin daşınması üçün pul ödəməlidir. Vasif Talıbovun təqiblərinə tuş gəlməmək üçün sahibkarlar qanunsuz olaraq dağıdılmış əmlaklarına görə icra başçılarına 100-200 min dollar zibil daşıma haqqı da ödəməli olublar.

Bundan başqa, iddia olunur ki, Vasif Talıbov sahibkarların əmlaklarını dağıdandan sonra Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin sahibkarlıq obyektlərinə dair arxivini də məhv etdirib. O zaman bu addım sahibkarların əllərində olan, dağıdılmış əmlaklarına dair sənədlərin kötüksüz, saxta olmasını ortaya qoymaq üçün atılıb. Vurğulanır ki, bu gün Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin arxivində Vasif Talıbov və şəriklərinə məxsus şirkətlərə daxil obyektlərin sənədlərindən savayı hər hansı bir iş adamına məxsus obyektin sənədinin kötüyü yoxdur.

Qeyd edək ki, Talıbovların və onlara yaxın şəxslərin Naxçıvanda həyata keçirdikləri tikinti işləri, tender layihələri bir müddətdir dövlət tərəfindən ciddi araşdırılır. Bu səbəbdən Naxçıvanda keçmiş hakimiyyətə bağlı olan şirkətlərin tikinti işləri dayandırılmışdı. Amma bu da muxtar respublikada işsizliyin artmasına səbəb olmuşdu. Talıbovların, onların şəriklərinin sabotaja bərabər addımları da diqqətdən kənar qalmayıb. Yaxınlarda Talıbovların yeni və daha əhatəli bir dalğanın ağuşuna tuş gələcəkləri ehtimalı da böyükdür.

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

# "YAP bu deputatlarından imtina edir" iddiası

## İddia olunur ki, hakim partiyanın namizədlərinin ilkin siyahısı bu yaxınlarda elan ediləcək

**Xeyli müddətdir ki, ölkədə növbədənkənar parlament seçkilərinin keçirilməsi ilə bağlı müzakirələr gedir. Bu kontekstdə birmənalı rəy yoxdur, çünki hər hansı rəsmi açıqlama verilməyib. Yalnız siyasi dəhlizlərdə eşidilən söhbətlərə əsaslanaraq siyasətçilər bu yöndə rəylər bildirirlər, ehtimallarını səsləndirirlər.**

Mediada, sosial şəbəkələrdə də bu müzakirələr intensivləşib. Son iddialar bundan ibarətdir ki, yaxın vaxtlarda parlament buraxılacaq və növbədənkənar seçkilər elan olunacaq. Bunu şərtləndirən başlıca amil kimi isə suverenliyini, ərazi bütövlüyünü bərpa etmiş Azərbaycanda bütün ölkəni əhatə edən parlament seçkilərinin də keçirilməsinin zəruriliyi göstərilir. Həmçinin vurğulanır ki, seçkilərin iyunda, yaxud iyulun əvvəllərində keçirilməsi daha münasib görünür. Çünki payızda ölkədə COP29 kimi böyük miqyaslı tədbir baş tutacaq. Habelə dekabrda da bələdiyyə seçkiləri keçirilməlidir.

Bunun paralelində isə belə rəylər də var ki, ölkədə referendum da keçirilə bilər. Ancaq hüquqi, konstitusion baxımdan buna ehtiyacın, zərurətin olmadığını deyənlər də çoxdur.

Parlament seçkilərinin isə zərurət olduğunu əksəriyyət söyləyir...

Bu il ölkəmizdə keçiriləcək parlament seçkiləri ilə bağlı hakim Yeni Azərbaycan Partiyasının namizədlərinin müəyyənləşdirilməsi üçün işə başlanılıb.




"Gununsesi.info"nun hökumətdəki mənbələrdən əldə etdiyi məlumata görə, ölkənin 125 seçki dairəsi üzrə hakim partiyanın namizədlərinin ilkin siyahısı bu yaxınlarda elan ediləcək. "Milli Məclisin YAP-dan olan hazırkı deputatlarının bir çoxu vahid namizədlər siyahısında olmayacaq" deyən mənbə onlardan bəzilərinin adını açıqlayıb: "Nizami Cəfərov, Rauf Əliyev, Oqtay Əsədov, İsa Həbibbəyli, Vasif Talıbov, Ülviyyə Həmzəyeva, Eldar İbrahimov, İmamverdi İsmayılov, Aqil Məmmədov, Anar Məmmədov, Bəxtiyar Sadıqov, Tahir Rzayev və Mixail Zabelin yola salınacaq şəxslərdir".

YAP-ın irəli sürəcəyi namizədlərin seçimində partiyanın İdarə Heyətindən daha çox hakim komandada yüksək vəzifə tutan 3-4 şəxsin təqdimatını verdiyi şəxslər əsas götürüləcək. Məlumatda həmçinin o da xüsusi vurğulanır ki, irəli sürülən namizədlərin seçilməsi üçün yeri icra hakimiyyəti orqanlarına hansısa saxtakarlıqlara getmək qadağan ediləcək.

"Ali siyasi rəhbərliyin mövqeyi budur ki, YAP-ın namizədləri seçkini özü qazanmalıdır", - deyə mənbə sayta vurğulayıb.

YENİ MÜSAVAT
N 54 (8427) 29 mart 2024

# "Metsamor" AES regionu təhdid edir

**Ermənistanın baş naziri Nikol Paşinyan "Metsamor" AES-də 2036-cı ildə, yəni hazırkı aqreqatın istismar müddəti başa çatdıqdan sonra yeni enerji blokunu işə salmağı planlaşdırdığını açıqlayıb.**

## Ermənistan atom elektrik stansiyasının istismar müddəti başa çatdıqdan sonra yeni enerji blokunu işə salmağı planlaşdırır; ekspertlərin fikrincə, Avropa da onun bağlanmasını istəyir, Paşinyan isə...

"Metsamor" AES-in istismar müddətinin uzadılması Gürcüstan, Türkiyə, Azərbaycan, İran və Qara dənizin cənub regionunun əhalisinin, ilk növbədə isə Ermənistanın özünün əhalisinin həyatı və sağlamlığı üçün təhlükə yaradır. Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələri Nüvə Enerjisi Sammitinin rəhbərliyinə açıq məktubla müraciət edərək "Metsamor" AES-in yaratdığı təhlükələrin aradan qaldırılmasının zəruriliyini vurğulayıblar. "Yeni Müsavat"ın verdiyi xəbərə görə, məktubda qeyd olunur ki, Azərbaycanda keçiriləcək COP29 qlobal ekoloji çağırışlara diqqət yetirir və dünya miqyasında daha sərt təhlükəsizlik standartlarına səbəb olan keçmiş nüvə qəzalarını nəzərə alaraq sayıqlığın artırılmasını tələb edir: "Diqqətə çatdırmaq istəyirik ki, "Metsamor"un fəaliyyəti nəzərəçarpacaq risk yaradır, beynəlxalq qurumların və ixtisaslaşmış təşkilatların tədbir görməməsi region ölkələri üçün təhlükəni daha da gücləndirir. Azərbaycan vətəndaş cəmiyyəti bu təhlükənin qarşısının alınması üçün təcili tədbirlərin görülməsini tələb edir və bütün əlaqədar tərəfləri məsuliyyətli davranmağa çağırır".



**Amerika Siyasi Elmlər Assosiasiyasının üzvü Brenda Şaffer** də "Metsamor" AES-in istismarı radiasiya təhlükəsizliyi, ekoloji problemlər və insan sağlamlığı üçün potensial təhlükələr yaratdığını deyib: "Türkiyə, Avropa İttifaqı və müxtəlif beynəlxalq təşkilatlar uzun müddətdir bu atom elektrik stansiyasının bağlanmasını istəyirlər. Bununla belə, Ermənistanın baş naziri Nikol Paşinyan "Metsamor"un 2036-cı ildə, yəni hazırkı aqreqatın istismar müddəti başa çatdıqdan sonra yeni enerji blokunu işə salmağı planlaşdırdığını açıqlayıb. İrəvandan cəmi 35 km aralıda yerləşən "Metsamor"da "Çernobıl" kimi qoruyucu qat yoxdur. Beləliklə, Çernobılda olduğu kimi, bu AES-də baş verə biləcək qəza asanlıqla irimiqyaslı çirklənməyə səbəb ola bilər. Təəccüblüdür ki, Ermənistanın özündə bu təhlükəli müəssisəni bağlamağa çağıran vətəndaşlar və təşkilatlar azdır".

**Şaffer xatırladıb ki, İrəvan Aİ ilə bütün tərəfdaşlıq sazişlərində atom stansiyasını bağlamağa hazır olduğunu bildirib, hətta bunun üçün vəsait də alıb, amma verdiyi vədləri yerinə yetirməyib:** "Aİ-nin ali nümayəndəsi Borrel 2024-cü ilin fevralında Ermənistanın xarici işlər naziri Mirzoyanla görüşü zamanı Aİ-nin Ermənistana stansiyanı bağlamağa kömək etməyə hazır olduğunu bəyan edib. Aİ ölkələrinin qonşuluqda çox təhlükəli nüvə reaktorları hələ də işlədiyi halda Avropada müasir və yaxşı işləyən atom elektrik stansiyalarını bağlamasının nə mənası var onda?!"

**Şaffer Paşinyanın Ermənistanın AES-ə malik olmasının ölkənin suverenliyini simvolizə etməsi ilə bağlı açıqlamasına da münasibət bildirib:** "Ermənistanın AES-ə texniki qulluq və yanacaq təchizatında 100 faiz Rusiya "Rosatom"undan asılı olduğunu nəzərə alsaq, bu, zarafat kimi gəlir. Burada istehsal olunan elektrik enerjisinin paylandığı elektrik şəbəkələri də Rusiyaya məxsusdur". Onun sözlərinə görə, son vaxtlar Ermənistan Rusiyadan asılılığını azaltmaq və Qərblə geniş əməkdaşlığı təmin etmək istəyindən danışır. ""Metsamor" AES-in gücünün artırılması, əksinə, bu asılılığı daha da artıracaq. Vaşinqton və Brüssel Ermənistana Qərblə əlaqələrini dərinləşdirməyə kömək etməkdə ciddidirsə, onlar Moskvanın Ermənistanın strateji infrastrukturu, o cümlədən, bütün enerji infrastrukturu üzərində nəzarətinə son qoymağın yolunu tapmalıdırlar", - o vurğulayıb. Professor hesab edir ki, Ermənistan da enerji ehtiyacını daha təhlükəsiz mənbələr hesabına ödəyə bilər.

**Professor Qabil Hüseynli "Yeni Müsavat"a qeyd etdi ki, Paşinyanın bu açıqlaması daxili ictimai rəyə hesablanıb:** "Nikol yaxşı bilir ki, 2036-cı ilə qədər hakimiyyətdə qalmayacaq. Onu da bilir ki, həmin ilədək bu cür AES-lər sıradan çıxacaq, yararsız olacaq, yeni texnologiyalar meydana gələcək. Sadəcə, Ermənistanda baş nazir nədən danışırsa, müxalifət onu ittiham edir, narazılar qınayır, nəsə bir qəbahət tapırlar. Ona görə daxili rəyə yönəlik fikirlər səsləndirib. Paşinyan çox gözəl müşahidə edir ki, 2036-cı ildə dünya başqa bir müstəvidə, başqa bir inkişafda olacaq və "Metsamor"un yeri görünməyəcək".

**Q.Hüseynli vurğuladı ki, yerləşdiyimiz regionda ətraf mühitə və əhalinin sağlamlığına ciddi təhlükə yaradan "Metsamor" Atom Elektrik Stansiyası (AES) Ermənistanda 1976-cı ildən bəri köhnəlmiş texnologiyalar əsasında fəaliyyət göstərir:** ""Metsamor" AES dünyanın ən köhnə nüvə texnologiyası ilə inşa edilib. Bu səbəbdən də dünyadakı ən təhlükəli AES hesab edilir. Daha da dəhşətlisi odur ki, müəssisənin istismar müddəti artıq çoxdan sona çatıb. İstismara verilərkən 30 il ərzində istifadə edilməsi nəzərdə tutulan bu stansiyanın istismar müddəti artıq 40 ili də aşıb. "Metsamor" AES-in fəaliyyəti 1988-ci ildə baş vermiş zəlzələdən sonra dayandırılıb və bir neçə il sonra AES yenidən işə salınıb. AES-də təhlükəsizlik sistemi çox aşağı səviyyədədir. 1982-ci ildə baş vermiş yanğın yalnız 7 saatdan sonra böyük çətinliklə söndürülmüşdü. Köhnə, elementar təhlükəsizlik standartlarına cavab verməyən "Metsamor" AES yalnız region ölkələrini deyil, dünya birliyini də narahat edir. Avropa İttifaqı 2000-ci ildə onun fəaliyyətinin dayandırılması müqabilində Ermənistan 138 milyon avro təklif etsə də, məbləğin azlığını əsas gətirərək təkliflə razılaşmayıblar".

**Hərbi ekspert Telman Qasımov isə "Yeni Müsavat"a bildirdi ki, bu məsələ olduqca mübahisəlidir:** "Avropa da atom elektrik stansiyasının bağlanmasının tərəfdarıdır. Çünki Qərbdə bilirlər ki, "Metsamor" Rusiyaya aiddir və onun işində Moskva daha çox maraqlıdır. Ona görə Avropanın mövqeyinə görə bu stansiyanı bağlayıb təbiətə ziyan vura bilməyəcək yeni elektrik stansiyaları işə salmaq istəyirlər. Hər halda, aprelin 5-də Paşinyanın da iştirak edəcəyi məlum toplantıda bu məsələ müzakirə ediləcək". **Hərbi analitik qeyd etdi ki, "Metsamor" daha əvvəl təmir olunsa da, istənilən səviyyədə fəaliyyət göstərə bilmir:** "Bir zamanlar Ermənistan İrana işıq verirdi, sonra Rusiya buna imkan vermədi. Kreml açıq şəkildə dedi ki, Ermənistan mənimdir. Ancaq İran indi də istəyir ki, "Metsamor" fəaliyyət göstərsin. Hər şey Qərbin Ermənistana verəcəyi dəstəkdən asılı olacaq".

❑ **Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**



## Rusiyadan 5 aprel görüşünə reaksiya

**Aprelin 5-də Ermənistan-ABŞ-Avropa İttifaqı (Aİ) formatında keçirilməsi nəzərdə tutulan görüş Cənubi Qafqazda mövcud təhlükəsizlik və iqtisadi əməkdaşlıq mexanizmlərini zəiflətmək məqsədi daşıyır.**

Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova teleqram kanalında yazıb.

Onun sözlərinə görə, bu qəbildən olan tədbirlər Moskvada narahatlıq doğurur, çünki onlar müstəsna olaraq anti-Rusiya xarakteri daşıyır: "Belə görüşlər regionun əksər ölkələrində narahatlıq yaradır. Çünki onlar Azərbaycanla Ermənistan arasında sülhün əldə edilməsinə deyil, Qərbin Cənubi Qafqaza son dərəcə dağıdıcı yanaşmaları ilə daxil olmasına yönəlib. Üstəlik, belə görüşlər regionda yeni ayırıcı xətlərin yaradılmasına, region ölkələrinin anti-Rusiya gündəminə uymağa məcbur edilməsinə, onların Moskva ilə çoxəsrlik əlaqələrinin pozulmasına, mövcud regional təhlükəsizlik və iqtisadi əməkdaşlıq mexanizmlərinin zəiflədilməsinə istiqamətlənib".

M.Zaxarova vurğulayıb ki, bütün dünyanın gözü qarşısında Ermənistan tədricən kollektiv Qərbin erməni xalqının köklü maraqları ilə tamamilə zidd olan son dərəcə təhlükəli planlarının həyata keçirilməsi alətinə çevrilir.

## Paşinyan "mühacir Qarabağ hökuməti"ni tanımır

**Qarabağı tərk edən bəzi dairələr Ermənistanın milli təhlükəsizliyinə təhdid yaradan hərəkətlər edirlər, mühacirətdə hökumət elan edir və s. addımlar atırlar.**

Bunu hökumətin martın 28-də keçirilən iclasında Ermənistanın baş naziri Nikol Paşinyan bildirib.

O qeyd edib ki, Ermənistan mühacirətdə olan belə bir "hökuməti" tanımır. "Mən çox aydın şəkildə bildirmək istəyirəm ki, Ermənistanda hökumət var və bu hökumət bu salonda oturur", - Nikol Paşinyan deyib.

**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev NATO-nun sabiq baş katibi Anders Foq Rasmussenlə bağlı paylaşım edib.**

# NATO-nun keçmiş baş katibi Ermənistandan rüşvət alıb

## Hikmət Hacıyev Rasmussenə hansı bədnam əməllərini xatırladır?

**Prezidentin köməkçisi sosial şəbəkədə qeyd edib:** "NATO-nun keçmiş baş katibi Anders Foq Rasmussenin və onun ətrafının Ermənistan hökuməti və erməni lobbisi tərəfindən sifariş edilmiş və ödənişli qondarma hesabat və ya "möhürlü" təbliğat materialı mənə 04 sentyabr 2023-cü il tarixli Ermənistan Respublikasının ödəniş sənədinin də paylaşıldığı yer haqqında postumu yenidən dərc etməyimi xatırlatdı. Anders Foq Rasmussen hesabatına ödənişi əlavə etməyi unudub. Pullar danışır!"

Hikmət Hacıyev Rasmussenə hansı bədnam əməllərini xatırladır?

**Politoloq Murad Sadəddinov** "Yeni Müsavat"a bildirdi ki, Avropada müxtəlif beynəlxalq qurumlarda yüksək postlarda işləmiş bir sıra şəxslər vəzifədən gedəndən sonra vəzifədə olduqları zaman qazandıqları məşhurluqdan, statusdan pul qazanmaq üçün sui-istifadə edirlər. NATO-nun keçmiş baş katibi Rasmussen da beləl追 belələrindəndir. Rasmussen NATO baş katibi çalışan zaman həmin vəzifə hesabına əldə elədiyi əlaqələri, statusu şəxsi maliyyə imkanlarını artırmaq üçün çirkin formada istifadə edir: "Bu cür adamlar lobbi şirkəti açaraq müxtəlif dövlətlərin, siyasi qüvvələrin maraqları üçün maliyyə qarşılığında fəaliyyət göstərirlər. Ermənistan və erməni diasporu Rasmussen kimi lobbi dəllallarının pula hərisliyini bildiyindən onlardan yararlanırlar. NATO-nun keçmiş baş katibinin gəlir deklarasiyasına əsasən, onun müştəriləri arasında Avropa İttifaqının Yaponiya və Tayvandakı missiyaları, "Equinor", "Viasat" və s. kimi Ermənistan da var.

Bu da sübut edir ki, Rasmussenin Ermənistana ötənilki səfəri və Laçınla sərhədə gəlməsi də məhz ermənilərin pulunun hesabına idi. Rasmussenin Ermənistan hökumətindən maliyyə aldığı bəllidir. Bunu ermənilər özləri də etiraf ediblər. Məsələn, ABŞ-da yaşayan erməni fəal Alison Taxmizyan özünün "X" səhifəsində Ermənistan hökumətinin NATO-nun keçmiş baş katibinə bu ölkəyə səfəri üçün pul ödədiyini açıqlamışdı".

**M.Sadəddinov vurğuladı ki, Rasmussen kimi şəxslər pul əldə etmək üçün nəinki vəzifədə olduqları zaman qazandıqları nüfuzu xərcləməyə, hətta mənəviyyatlarını satmağa hazırdırlar. Bunu öz çirkin fəaliyyətlərində sübut edirlər**: "Avropada bu cür iyrənc fəaliyyətlə məşğul olan siyasətçilər, parlamentarilər çoxdur. Erməni diasporunun maliyyəsindən pay qoparmaq üçün cənfəşanlıq edirlər. Rasmussen də belələrindəndir. Odur ki, Hikmət Hacıyev həmin fikirləri faktlara əsaslanıb yazıb. Azərbaycan tərəfi faktsız danışmır. Anders Rasmussenin rəhbərlik etdiyi lobbi şirkəti Ermənistan dövlətindən maliyyə alıb. Özü də bu vəsait külli miqdarda olub. NATO baş katibi olmuş şəxs özünü erməni pulunun əsirinə çevirib".

Qeyd edək ki, NATO-nun keçmiş baş katibi Anders Foq Rasmussenin rəhbərlik etdiyi, keçmiş baş nazirlər, parlamentarilər və diplomatların daxil olduğu "Ermənistanın Dostları Şəbəkəsi" yüksək səviyyəli qrup hesabat hazırlayıb. Sənəd Ermənistanla Avropa İttifaqı arasında münasibətlər, onların daha da gücləndirilməsinin zəruriliyi, Ermənistanın bu ittifaqa üzvlüyü məsələlərinə həsr olunub. Bundan başqa, hesabatda Cənubi Qafqazdakı vəziyyət və Ermənistana qarşı "təhdidlərin" olduğu araşdırılır, Ermənistana guya Azərbaycandan təhlükə olduğu və bu təhlükənin qarşısının alınması üçün Avropa İttifaqı tərəfindən addımların atılmasının vacibliyi bildirilir. Hesabat müəllifləri Ermənistana qarşı mövcud problemləri və təhdidləri nəzərə alaraq, Avropa İttifaqının atmalı olduğu addımlarla bağlı təkliflər irəli sürüb. Sənəddə Ermənistan Respublikasına əhəmiyyətli dəstək verməyin və cəsarətli addımlar atmağın vaxtının çatdığı qeyd edilir. Hesabatda deyilir ki, Aİ keçmişdə təşkilat vasitəçilik rolunu saxlamaq istədiyi üçün Ermənistanla təhlükəsizlik məsələsində əməkdaşlıq etməkdən çəkinirdi. "Lakin Azərbaycanın Ermənistanla bağlı siyasəti göstərdi ki, Bakı problemlərin danışıqlar yolu ilə həllində o qədər də maraqlı deyil.

Əksinə, "Dağlıq Qarabağ"a hücum onun yenidən hərbi varianta müraciət edə biləcəyi ilə bağlı fərziyyələri gücləndirdi. Ona görə də Aİ vasitəçilik əvəzinə regionda iştirakını yenidən diqqət mərkəzində saxlamalı və ermənilərin müqavimətini gücləndirməli və yeni müharibənin qarşısını almalıdır. Məhz buna görə də Avropa İttifaqı ilə Ermənistan arasında həm qısa, həm də uzunmüddətli perspektivdə təhlükəsizlik sahəsində əməkdaşlığın gücləndirilməsinə ehtiyac var". Müəlliflər Aİ-nin Ermənistana münasibətlərin genişləndirilməsi üçün mərhələli, lakin dəqiq yol xəritəsi təklif etməli olduğunu yazıb. Bura Ermənistana Aİ-yə namizəd statusunun verilməsi daxildir.

Qeyd edilir ki, bu təklif real, əsaslı dəstəklə müşayiət olunmalıdır. Ermənistanın özünü guya olduqca qeyri-sabit təhlükəsizlik mühitində gördüyü bildirilir. Azərbaycanın Ermənistana təhlükə yaratmaqda davam etdiyi və hücuma hazırlaşdığı vurğulanır.

Hesabata görə, 2021 və 2022-ci illərdə Azərbaycan tərəfindən Ermənistanın suveren ərazisinin təxminən 200 kvadrat kilometrinin "işğal" edildiyi göstərilir. Sənəddə həmçinin "işğal"ın Ermənistanın suverenliyinə birbaşa təhlükə yaratdığı bildirilir.



Qeyd olunur ki, Azərbaycan Ermənistan ərazisindən quru dəhlizinin yaradılması tələbini davam etdirir və buna nail olmasa, Ermənistanın Zəngəzur vilayətini "işğal" etmək üçün hərbi gücdən istifadə edəcək. Hesabat müəllifləri vurğulayır ki, Ermənistanla sərhədləri açmaqdan imtina edən və ona təzyiq göstərən Türkiyə də bu prosesdə iştirak edə bilər. Çünki o, Azərbaycanla sıx əlaqələri davam etdirir.

Göründüyü kimi, sözügedən hesabat Azərbaycana və Türkiyəyə qarşı qərəzli olmaqla yanaşı, eyni zamanda Ermənistanın siyasi ritorikasını özündə əks etdirir. Ancaq bu "sənəd"in daha çox Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasında maraqlı olmayan erməni radikal millətçi qüvvələrinin və Avropadakı bir sıra dairələrin siyasi direktivləri əsasında hazırlandığı müşahidə olunur.

Söhbət erməni diasporu, erməni lobbisi və Avropada Ermənistana havadarlıq edən ölkələrdən gedir.

Ancaq həm Anders Foq Rasmussenin, həm də onun rəhbərlik etdiyi "Ermənistanın Dostları Şəbəkəsi"nin Azərbaycana qarşı qərəzli münasibəti ilk dəfə baş vermir. Yəni bu qurum Azərbaycanda hər kəsə yaxşı tanışdır.

**"Anders Rasmussen öz lobbi şirkəti "RasmussenGlobal"ı tanıtmaq, şübhəli lobbiçilik və təsir xidmətləri göstərmək üçün NATO-nun keçmiş baş katibi statusundan sui-istifadə edir". Bu fikirlər isə Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin NATO-nun keçmiş baş katibi Anders Foq Rasmussenin rəhbərlik etdiyi qrupun hesabatında yer alan iddialara dair şərhində əksini tapıb.**

"Açıq mənbələrdən əldə edilən maliyyə sənədləri sübut edir ki, Anders Rasmussen öz lobbi şirkəti "RasmussenGlobal"ı tanıtmaq, şübhəli lobbiçilik və təsir xidmətləri göstərmək üçün NATO-nun keçmiş baş katibi statusundan sui-istifadə etməkdə davam edir. Ermənistan hökuməti onun müştərisi kimi, "çox düşünülmədən təsdiqlənmiş" bu hesabata görə yüz minlərlə ABŞ dolları xərcləyib", - məlumatda qeyd edilib.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**



# Fransada ASALA ilə qapalı Qarabağ görüşü

## ASALA terror təşkilatının dəstəkçisi Murad Papazyan maraqlı faktlar açıqladı

**Fransadakı Erməni Təşkilatlarının Koordinasiya Şurasının həmsədri, ASALA terror təşkilatının dəstəkçisi Murad Papazyan Ermənistanın hazırkı vəziyyəti və rəsmi Parisin verdiyi dəstəklə bağlı müəyyən detalları açıqlayıb.**

Publika.az xəbər verir ki, Fransa prezidenti Emmanuel Makronla şəxsi münasibətləri olan Papazyan Ermənistan mediasına müsahibəsində Paşinyan hakimiyyətinin səhvlərindən danışıb.

Lakin bu müsahibədə müəyyən məqamlar da ortaya çıxıb. Papazyan bildirib ki, Makrondan Türkiyə və Azərbaycan hücum edərsə, Ermənistanı qoruyacağı haqda soruşub.

"Bildirdim ki, belə bir problem baş verərsə, Avropa Ermənistanı qoruyacaqmı, Fransa nələr edəcək, ABŞ necə münasibət sərgiləyəcək? Biz indiki halda elə bir vəziyyətdəyik ki, Ermənistanı quruda az-çox müdafiə etmək qabiliyyəti olan müttəfiqi Rusiyadır. Ermənilər 100 il əvvəl seçim etmək qarşısında qalıb və Rusiyanı seçməli olublar. İndi də seçim qarşısındadırlar. Bu dəfə Türkiyə və Rusiya arasında seçim edilməlidir. Halbuki Paşinyan hakimiyyətinin siyasəti nəticəsində Ermənista iqtisadiyyatı 4-5 ay sonra Türkiyə və Azərbaycanın nəzarətinə keçəcək", - o deyib.

Papazyanın müsahibəsindən məlum olur ki, bu yaxınlarda Fransada Azərbaycan əleyhinə qapalı tədbir keçirilib. O bildirib ki, Fransa prezidenti, baş nazir, bütün dövlət aparatı ermənilər və Ermənistan məsələsində, o cümlədən Qarabağda erməni maraqları məsələsində yekdildirlər.

"Bugünlərdə Fransa hakimiyyət orqanlarının və bir çox deputatın iştirakı ilə konfrans keçirildi. Orada Ermənistan və Qarabağdakı hadisələrdən sonra yaranmış vəziyyət prioritetlərə uyğun qaldırıldı. Qarabağda (qondarma-red) "etnik təmizləmə" qiymətləndirildi, ermənilərin geri qayıtmasının beynəlxalq mexanizmlər vasitəsilə həyata keçirilməsi məsələsi qaldırıldı" - Papazyan qeyd edib.

Bu açıqlamalardan bir daha məlum olur ki, başda Makron olmaqla, Fransanın dövlət aparatı Azərbaycana qarşı ermənilərlə birlikdə planlar qurmaqdan əl çəkmir.

YENİ MÜSAVAT
N 54 (8427) 29 mart 2024



# Vətənsevər lotereyaçı

Zamin HACI
zaminhaci@gmail.com

**Hara baxsan vətənpərvərliyimizdən pul damır. Patriotizmin şiddətindən partlayan vətəndaşlarımız vardır. Bəzən onların quyruğu qapı arasında qalır, tutulurlar. Onlardan biri "Bakı Şəhər Halqası" kimi romantik-erotik ad daşıyan, el dilində yazsaq, Formula-1 yarışlarının təşkilat komitetində yüksək vəzifə - idman şöbəsinin rəisi vəzifəsini tutmuş Çingiz Mehdiyevdir. Çingiz müəllim 400 min manata yaxın pulu yeməkdə suçlanır.**

İndi onun həyatından bəzi detallar ortaya çıxır və vətənsevərliyinə paxıllığımız tutur. Sən demə, bu yoldaş hələ 2006-cı ildə Gino Metie adı ilə ABŞ vətəndaşlığı alıbmış. İkili vətəndaşlıqla Bakıda maşın sürməyə ayrılan pulları qapazlayırmış. Halal olsun. Bacarıqlı yoldaşdır. Yeni dövrümüzün, aparılan islahatların yetirməsi, meyvəsidir. Bu sistemdə hərə bir yerdən əkişdirir. Fürsət düşmüşkən. Biri Beynəlxalq Bankdakı pullara dədəsinin malı kimi baxırdı, başqası icra hakimiyyətində 700 nəfərə verilən maaşa. Adından göründüyü kimi: halqada işə düzəlmisənsə, oğurluq dairəsinə girməlisən. "Başqa yolu yox artıq", köhnəlmiş, aktuallığını itirmiş mahnıda deyilən kimi.

Gino müəllimi, deyilənə görə, keçmiş arvadı satıbdır. Boşanandan sonra pul, mal-mülk narazılığı düşübmüş. Belə çıxır boşanma olmasa istintaq orqanlarımız heç yeyintini bilməzmiş. Sonra da bəziləri saxta, zorakı yollarla ailə dəyərlərini qorumağı tələb edir. Şairlər, deputatlar, cürbəcür sosiopat ekspertlər interneti bağlamağı arzulayırlar, guya qabaqlar, vatsap, feysbuk, tik-tok çıxanacan xalqımız boşanmırmış. Yaxşı, boşanma bir cinayət əməlinin, dövlət əmlakının yeyintisinin üstünü açıbsa, buna nə ad qoyaq? Bir ailə dağılıb, lakin yüzlərlə ailə qovuşacaqdır! (Hesab edirəm Gino müəllimin yediyi 400 min manatı dövlət büdcəsinə qaytarsaq, o vəsaitlə azı 40 imkansız gənci evləndirə bilərik. 400 nəfərlik toplu sünnət də mümkündür).

Hələ siz bunun vətənsevərliyinə diqqət eləyin! Gino Metie! Çingiz Mehdiyevlə səsləşən, həmqafiyə ad-soyad seçib ki, ermənipərəst Amerikada qədim xalqımıza yadlaşmasın. İstəsə Barak Bayden, Corc Tramp, nə bilim, Metyu Vaşinqton adı da seçərdi, kim mane olurdu? Seçməyib. Vətən məhəbbəti budur.

Məhz bu vətən eşqiylə bizim keçmiş xarici işlər nazirimiz iki oğluna Nyu Yorkda bahalı evlər almışdı. İstəsə Bakının P.xludərə yaşayış massivindən də alardı, lakin qəsdən Nyu Yorku seçibdir. Niyə seçməyibdir? Bəlkə buradakı qanun-qaydaya, sənəd-sünədə etibar etmir, fikirləşir birdən hökumətin üzü dönər, evləri tutub əlimizdən alarlar? Yox. Yuxarıda yazdığım səbəbdir: oradakı erməni lobbisinin ağzını cırmaq məqsədilə oğullarına evi Nyu Yorkdan almışdır. Ki, lobbinin mərkəzində durub mübarizə aparsınlar.

Yeri gəlmişkən, bizim jurnalistikada belə filoloji problem var. Kiminsə erkək övladından bəhs edəndə "Filankəsin oğlan(lar)ı" yazırlar. Elə manıslarımız da bəzən intervü verəndə (başqa intervü verən qalmayıb), ailədən dəm vuranda "oğlanım" deyir. Məncə, bu, yanlışdır. Çoxmənalı səslənir. Düzgün yazılış "oğlu", "oğlum", "oğullarım" olmalıdır. Diqqətinizə görə təşəkkür edirəm. Qayıdaq patriotizmə.

Bu yaxında mən bir məzəli verilişə də təsadüfən baxdım, orada ABŞ-da yaşayan azərbaycanlı ailəni çəkmişdilər. O cür verilişlərə aid tam komplekt yerindəydi: paxlava, bayraq, səməni, canım sənə desin, aş, muğam, tərəkəmə rəqsi və sairə. Ailə başçısı deyirdi ki, biz vətənimizi çox sevirik, Azərbaycandan ayrıla bilmirik. Məndə istər-istəməz sual yarandı ki, atam, belə sevirsənsə, niyə çıxıb getmisən, qalıb burada bizim kimi sevərdin da bə. Veriliş davam edəndə bu sualıma cavab tapıldı. Sən demə, dostumuz ABŞ vətəndaşlığını heç istəmirmiş, sadəcə, qrin-kard lotereyası udub, məcbur olub çıxıb getsin.

Ah-vah. Həqiqətən bu yankilər çox yaramazdır, dünyanın hər yerində insanlara zorla lotereya oynadırlar. Mən hələlik dözürəm.



# Vaşinqtonun təhlükəli Cənubi Qafqaz planı

## ABŞ Ermənistan vasitəsilə bu planı reallaşdırmaq istədiyini də gizlətmir

**ABŞ Dövlət Departamentindən "Amerikanın səsi"nə bildirilib ki, ABŞ Cənubi Qafqazdakı bütün ölkələrin demokratik inkişafını, suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü dəstəkləyir. ABŞ Dövlət Departamenti Cənubi Qafqaz xalqlarına sülh və sabitlik gətirən istənilən vicdanlı öhdəliyi alqışlayır, ancaq qeyd olunur ki, Rusiya Cənubi Qafqazda və ya başqa yerlərdə etibarlı və ya vicdanlı müttəfiq və ya tərəfdaş kimi görünə bilməz.**

"Biz Rusiyanın Ukraynaya qarşı davamlı, dağıdıcı təcavüzünün, Gürcüstanın suveren ərazisinin davamlı işğalının, regionda və dünyada sabitliyi pozan hərəkətlərin şahidi olduq. Ona görə də biz Rusiyanı Cənubi Qafqazda və ya başqa yerlərdə etibarlı və ya vicdanlı müttəfiq və ya tərəfdaş kimi qəbul edə bilmərik", - deyə Dövlət Departamentindən bildirilib.

İrana gəlincə, Dövlət Departamenti vurğulayıb ki, ABŞ ardıcıl olaraq Cənubi Qafqaz ölkələrini İranın niyyətlərini hərtərəfli qiymətləndirməyə və İran rejimi ilə bağlı bütün əməliyyatlarda ehtiyatlı davranmağa təşviq edib.

ABŞ-ın Qafqazda öz qaydasını yaratmaq istəyi - bəs Ankara, Moskva və Tehran?

**AMİP sədrinin beynəlxalq əlaqələr üzrə müavini Elşən Mustafayev Rusiyanı bölgədən çıxarmaq istəyən ölkələrin şanslarını yüksək görmür:** "ABŞ regiondakı proseslərə təsir imkanlarını artırmaq istəyini heç vaxt gizlətməyib və bu istiqamətdə Rusiyanı bölgədən sıxışdırıb çıxartmaq məqsədilə mümkün olan bütün işləri görməyə çalışır. Hazırda Ermənistan vasitəsilə bu planı reallaşdırmaq istəyir. Amma istəyinə çatması ilə bağlı şansları yüksək görünmür. Çünki Rusiyanın buna qarşı müqaviməti kifayət qədər sərt ola bilər və nəticədə bütünlükdə Cənubi Qafqazda yeni qaynar nöqtə yarana bilər. Rusiyanın Cənubi Qafqazda mövqelərinin necə olacağı Ukraynadakı müharibənin gedişatından asılı olacaq və ona uyğun olaraq ABŞ-ın bölgədə hansı şəkildə mövcud olması bəlli olacaq. Yəni Rusiya bölgədən məcbur qalıb könüllü çəkilməyəcəyi halda, başqa variantlardan istifadə olunacaqsa, o zaman durum daha kritik nöqtəyə çıxacaq. Çünki hazırkı vəziyyətdə Rusiyaya qarşı Ermənistandan istifadə olunduğunu görürük və hadisələr artan xətt üzrə inkişaf edərsə, Ermənistanda "ikinci Ukrayna" yarana bilər. Amma fərq ondadır ki, Ermənistan əhalisinin sayı azdır, ərazisi kiçikdir, silahları zəifdir, dənizlərə çıxışı yoxdur və ən əsası onları müdafiə etməyə söz vermiş Fransadan, Amerikadan çox uzaqdadır ki, hətta yaxında olsa belə onun əvəzinə heç kim gəlib Rusiya ilə döyüşməyi ağlından belə keçirməyəcək. Yəni Cənubi Qafqaza bu şəkildə girmək cəhdləri sülh və təhlükəsizliyi zərbə altında qoyar və bunun fəsadlarından doğan nəticələri uzun müddət neytrallaşdırmaq mümkün olmaz. ABŞ Ermənistana, Azərbaycana, Gürcüstana tərəfdaş deyə və strateji müttəfiqlik arzusunda olduğunu bildirə bilər. Amma buna mane olan problemləri ortadan qaldırmadan hansı şəkildə bu istəyini həyata keçirmək istəyir? Burada İran faktorunu da unutmamalıyıq. Belə məsələlərdə mühüm gəlişmələr baş verməsə, İran və Rusiya eyni hədəfləri vururlar və bu istiqamətdə müttəfiqlik təcrübələri də var. Aprel ayının 5-də Brüsseldə Avropa İttifaqı, ABŞ, Ermənistan görüşlərinin olacağı, aralarında təhlükəsizliklə bağlı hansısa razılaşmaların müzakirə edilməsi hesab edirəm ki, ABŞ-ın Cənubi Qafqaz siyasətində uğurlu addım olmayacaq. Çünki belə bir razılaşmanın Rusiyaya qarşı hədəflənməsi bildirilsə də, Ermənistan-Azərbaycan arasında sülh müqaviləsinin imzalanmasını da böyük təhlükə altında qoya bilər. Əgər belə anlaşmalar sülh müqaviləsi imzalanandan sonra həyata keçirilsəydi, bu, anlaşılan olardı. Paşinyan, Alen Simonyan Qazağın anklav olmayan 4 kəndinin qaytarılması məsələsinin gündəlikdə olduğunu deməsindən sonra Ermənistan Müdafiə Nazirliyinin Baş Qərargah rəisi bildirir ki, hələ torpaqların qaytarılmasından söhbət gedə bilməz və hərbiçilər həmin ərzilərdən geri çəkilməyəcək. Yəni artıq planlı, yaxud plansız belə fikirlər də dövriyyəyə buraxılmağa başlayıb. Əminəm ki, bu cür fikirlər Qərbin və ABŞ-ın Ermənistana dəstək bəyanatlarından sonra daha da inkişaf edir. Yəni Qərb bəyanatların əsasən Rusiyaya hədəfləndiyini desə də, ermənilər bunu ilk olaraq Azərbaycana qarşı istifadə etməyə çalışacaqlar. Bunu Qərb və ABŞ bilməmiş deyil. Əgər bilirlərsə, o zaman Cənubi Qafqaz respublikalarına bilərəkdən fərqli yanaşmanı görürük, belə görüntü isə ABŞ-ın bölgədə sülh və əmin-amanlığın yaranması, hər 3 dövlətlə dostluq və tərəfdaşlıq əlaqələrinin qurulması fikirləri ilə üst-üstə düşmür. Bütün bunlara baxmayaraq, hələ də verilən bəyanatlardan fərqli olaraq görülən işlərin bölgə üçün gələcəkdə ciddi problemlər yaradacağına işarə vurur".

**Ekspert burada təhlükəli məqam da görür:** "Digər bir məsələ isə Qərbin Rusiya ilə qarşıdurmanı məhz üç Cənubi Qafqaz ölkəsinin əli ilə aparmaq istəməsidir ki, bu da çox təhlükəlidir. Hələlik görünən odur ki, Azərbaycan bu planda alət olmaq istəmir, həmçinin Gürcüstan da Rusiya ilə vəziyyətin gərginləşməsində maraqlı deyil. Hazırda Ermənistanla bu işlərin üzərində işlənilir. Avropa İttifaqı, NATO üzvlüyünə qəbul olunacağı, təhlükəsizliklərini təmin edəcəkləri, silah və maddi yardım göstərəcəkləri ilə bağlı vədlər verməklə rəsmi İrəvanı inandırmağa çalışırlar ki, Rusiyaya qaşı fəaliyyətlərini gücləndirsinlər. Ümumiyyətlə, düşünürəm ki, Türkiyənin maraqları və istəyi nəzərə alınmadan Cənubi Qafqazda təmsil olunmaq imkanları yoxdur. Bir neçə il öncə Rusiya bunu başa düşdü və Türkiyənin regionda mövcudluğu ilə barışdı. Əgər ABŞ Cənubi Qafqazda mövcud olmaq istəyirsə və hər 3 dövlətlə yaxın əlaqələr qurub bölgəyə sülh və iqtisadi yüksəliş gətirmək istəyirsə, Ukrayna cəbhəsində uğurlar olmadan bunu edə bilməyəcək. Daha doğrusu, Ermənistan vasitəsilə bunu etməyə cəhd edəcəksə, region üçün böyük fəlakətlər olacaq. Yəni dediyim kimi, Rusiya məcbur qalıb könüllü şəkildə geri çəkilməyəcəyi halda onun üzərinə getmək özünə qəsd kimi bir şeydir. O səbəbdən hesab edirəm ki, ABŞ-ın Cənubi Qafqazda mövcudluğu Ukrayna cəbhəsindəki vəziyyətdən asılı olacaq. Orada da vəziyyət Rusiyanın xeyrinə dəyişməyə gedə bilər. Yeri gəlmişkən, burada Ukraynaya yardım olaraq ayrılmış 61 milyard dolların ABŞ Konqresindən asılıb qalmasının da rolu böyükdür. Ortada bu problemlər varsa, o zaman bölgəyə yanaşmalar da adekvat olmalıdır. Azərbaycan hazırda maksimum şəkildə regionda qaynar ocaqların yaranmasına qarşı iradəsini ortaya qoyub. O bilər ki, bu öz çıxarları səbəbindən kimlərisə qane etməyə bilər, amma alternativini görənə qədər bizi bu siyasət hələ ki qane edir".

❑ Cavanşir ABBASLI
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 54 (8427) 29 mart 2024

# Bakının tələbinə ermənilər referendumda “yox” desə...

## Ermənistan rəhbərliyi sülh prosesini pozmaqdan ötrü növbəti manevrlərə əl atır; rəsmi İrəvanın qeyri-konstruktivliyi gərginliyi tətikləyir

**Rəsmi İrəvan yekun sülh sənədinin imzalanmasından yayınmaq üçün müxtəlif variantlara əl atmaqdadır. Ölkə hakimiyyəti üzdə sülh tərəfdarı kimi görünməyə çalışsa da, əslində məqsədi “nə hərb, nə sülh” prosesinin ömrünü maksimum uzatmaqdan ibarətdir.**

Ermənistanın baş naziri Nikol Paşinyan həftəsonu Gümrüdə partiya üzvləri ilə görüşündə Ermənistanda yeni konstitusiyanın qəbulu ilə bağlı danışıb. “Anlamadan konstitusiyanın qəbuluna qarşı nümayişlər keçirirlər. Biz bu məsələni ona görə ictimai müzakirəyə təqdim edirik ki, xalqla birlikdə konstitusiya yaradaq. O konstitusiya bu gün yoxdur. Bu gün soruşsan ki, o konstitusiyada nə yazılmalı, nə yazılmamalıdır, məndə bəzi fikirlər ola bilər. Amma konstitusiya o insanların beynində olmayana qədər mövcud deyil. Çünki əgər insanların beynində deyilsə, 700 min insan gedib buna necə səs verəcək? Yalnız bir halda, o hesab etsə ki, onun sahibidir və onun müəllifidir”, - deyə, Paşinyan vurğulayıb. Konstitusiya İslahatları Şurasının sədri, ədliyyə naziri Qriqor Minasyan isə son olaraq bəyan edib ki, onlar Paşinyanla görüşü gözləyirlər, bundan sonra yeni konstitusiyada hansı dəyişikliklərin nəzərdə tutulduğunu ictimaiyyətə təqdim edəcəklər. O, konstitusiyanın preambulasının müzakirəsinin aparılmadığını qeyd edib. İslahatlar Şurası iki ildir konstitusiya islahatları konsepsiyasının layihəsi üzərində işləyir. Hökumətə göndərilən layihədə istiqlal bəyannaməsi müddəasının çıxarılmasından bəhs edilmir. Ədliyyə nazirinin dediyinə görə, gələcək işləri Paşinyanın təklifi ilə sinxronlaşdırmaq istəyirlər.

Paşinyanı yeni konstitusiyaya məcbur edən müəyyən səbəblər var. Məsələn, Ermənistanın Müstəqillik Bəyannaməsi və Ermənistan Konstitusiyası “Dağlıq Qarabağa birləşmə haqqında 1989-cu il 1 dekabr tarixli deklarasiyaya” əsaslanır. Azərbaycanla sülh danışıqları üzrə müzakirələrin artdığı bir dövrdə təbii ki, konstitusiyada yuxarıdakı məsələni ehtiva edən maddənin dəyişdirilməsi labüd sayılır. Ermənistanın digər hüquqi sənədlərində yer alan bəzi maddələr Azərbaycana qarşı ərazi iddiası olduğundan rəsmi Bakı onların dərhal ləğvini tələb edir. Prezident İlham Əliyev bəyan edib ki, İrəvan bu addımları atmazsa, sülh müqaviləsindən danışmaq mümkün deyil. Paşinyanın və ədliyyə nazirinin açıqlamaları arasında ziddiyyət var. Çünki Ermənistan Konstitusiyasında Müstəqillik Bəyannaməsinin xatırlanması və ona istinad edilməsi hazırda aparılan sülh danışıqları və imzalanacaq sülh müqaviləsi ilə üst-üstə düşmür. Belə bir maddənin ölkənin əsas qanununda qalması sabah özü üçün beynəlxalq arenada ciddi problemlərə səbəb ola bilər. Paşinyanın konstitusiya dəyişikliyində məsuliyyəti xalqın üzərinə qoyması da bu məsələdə yaxşı perspektiv vəd etmir. Əgər mümkün dəyişikliklərə xalq referendumda “yox” deyərsə, o halda Paşinyanın indiyədək apardığı sülh və yeni Ermənistan qurmaq təbliğatı iflasa uğrayacaq. Bakının tələbinə ermənilər referendumda “yox” desə, hadisələrin gedişi necə ola bilər?



**Sosial Tədqiqatlar Mərkəzinin icraçı direktoru Sahib Məmmədov “Yeni Müsavat”a açıqlamasında təsdiqlədi ki, Ermənistanda mövcud konstitusiyaya əlavə və dəyişikliklərin edilməsi ilə bağlı diskussiyalar davam edir:** “Amma konstitusiya islahatları hansı məsələləri əhatə etməlidir, dəyişikliklər nədən ibarət olmalıdır, bununla bağlı heç hökumətin daxilində belə konsensus yoxdur. Bu baxımdan baş nazir Paşinyanla, onun ədliyyə nazirinin dəyişikliklərlə bağlı fərqli fikirlərinin olması da bunun göstəricisidir. Yaxud mövcud hökumətdə fərqli fikirlərin olması imitasiya xarakterlidir və əvvəlcədən razılaşdırılıb. Əslində Ermənistanda gözlənilən konstitusiya dəyişikliyində bizim üçün maraq kəsb edə biləcək məsələ "Ermənistanın Müstəqillik Bəyannaməsi"nin preambulasındakı “Ermənistan SSR Ali Sovetinin və Dağlıq Qarabağ Milli Şurasının Qarabağ 1 dekabr 1989-cu il tarixli "Ermənistan SSR və Dağlıq Qarabağın birləşdirilməsi haqqında" birgə qərarı" ifadəsi, bəyannamənin 11-ci bəndindəki “Ermənistan Respublikası beynəlxalq səviyyədə 1915-ci ildə Osmanlı Türkiyəsi və Qərbi Ermənistanda baş vermiş erməni soyqırımının tanınma məsələsini dəstəkləyir” ifadəsi və hazırkı Ermənistan Konstitusiyasının preambulasındakı “Erməni xalqı Ermənistan dövlətçiliyinin fundamental prinsiplərinə və Ermənistanın Müstəqillik Bəyannaməsində təsbit olunmuş milli məqsədlərə əsaslanaraq...” ifadələridir. Ermənistan tərəfindən qəbul olunmuş “Ermənistanın Müstəqilliyi Bəyannaməsi” və konstitusiyada - hansı ki, Ermənistanda hər iki sənəd ən yüksək hüquqi qüvvəyə malikdir - Azərbaycana və Türkiyəyə qarşı ərazi iddiasının olduğu bəyan edir". **S.Məmmədov qeyd etdi ki, Ermənistanın dövlət atributlarında, konkret olaraq gerbində də Türkiyəyə qarşı ərazi iddiasının açıq işarəsi verilir:** “Əgər konstitusiya islahatları zamanı Ermənistanın ali qanunlarında Azərbaycana və Türkiyəyə qarşı hüququ baxımdan əks olunmuş ərazi iddiaları aradan qaldırılmayacaqsa, bu zaman o islahatların bizim üçün heç bir əhəmiyyəti olmayacaq. Hökumətdaxili diskussiyalardan və açıqlamalardan görünən budur ki, bu məsələ ilə bağlı konkret mövqe yoxdur. Ermənistanda olan siyasi qüvvələrin də əksəriyyəti qətiyyətlə belə dəyişikliyin əleyhinədir. Belə olan halda, mümkündür ki, yeni mətnin layihəsində konstitusiyanın preambulasında dəyişiklik ümumiyyətlə nəzərdə tutulmasın, yaxud bu dəyişiklik layihədə əks olunsun, amma referendumda seçicilər tərəfindən dəstəklənməsin”. **Ekspert bildirdi ki, variantlardan hər hansı birinin baş verməsi Azərbaycanla Ermənistan arasında sülh danışıqlarına və sülh prosesinə ciddi zərbə vuracaq və onu mənasız edəcək:** “Dövlətə qarşı ərazi iddiası olan başqa bir dövlətlə hansı sülh müqaviləsindən söhbət gedə bilər ki? Mənim qənaətimə görə, bu halda artıq Azərbaycan öz planları ilə getməlidir. Yəni şərti sərhəddə delimitasiya proseslərinin davam edib-etməməsindən asılı olmayaraq, demarkasiya prosesinə başlamalı, sərhəd nişanlarını özünün məqbul bildiyi və beynəlxalq hüququn prinsiplərinə zidd olmayan şəkildə quraşdırmalıdır. Ən azı o hissələrdə ki, Azərbaycan qəti olaraq nə irəli getmək, nə də geri çəkilmək fikrində deyil. Paralel olaraq Azərbaycan Naxçıvanla kommunikasiyanın bərpa olunması istiqamətində işlərini davam etdirməlidir.”

**Politoloq Tural İsmayılov isə bu fikirdədir ki, Ermənistanda konstitusiya dəyişikliyini təkcə revanşistlər yox, Fransa və istismarçı Qərb dairələri də istəmir:** “Konstitusiya dəyişikliyi məsələsində də Ermənistan müstəqil siyasi qərarlar almaqda acizdir. Azərbaycanın razılığı alınmadan Ermənistan ərazilərində Aİ mülki missiyası adı altında Qərbin müxtəlif strukturlarını toplayan Ermənistandakı "sorosçu" Paşinyan hakimiyyəti Qərblə əlaqələri dərinləşdirmək adı altında “ikinci Maydan” ssenarisini həyata keçirməyə çalışır. Faktiki olaraq bu gün Qərb Ermənistan ərazilərində Azərbaycan, Rusiya, Türkiyə və İran əleyhinə yeni kəşfiyyat platsdarmları formalaşdırmağa çalışır. Bütün bunların fonunda bu gün Ermənistanın yerləşdiyi geosiyasi durumu təhlil etməyən, Ermənistanın inkişafını istəməyən, Ermənistandan ancaq özünün siyasi məqsədləri üçün istifadə etmək istəyən başda Fransa və ABŞ-daki ermənipərəst dairələr olmaq üzrə Qərb strukturları bölgəni qarışdırmaq üçün Ermənistanı yenidən qızışdırmağa çalışırlar”.

❑ **E.PAŞASOY, “Yeni Müsavat”**



## “Hakimiyyətdə bu qədər qalacağımızı gözləmirdim”

**Nikol Paşinyan bu yaxınlarda partiyadaxili qapalı iclasların birində təəccübünü bildirib ki, 6 ildir hakimiyyətdədirlər və xalq onlara dözür. Bu barədə Ermənistanın “Hraparak” nəşri yazıb.**

Nəşr qeyd edib ki, o, bu barədə Ermənistanın Aİ üzvlüyünə namizəd olması məsələsinin müzakirəsi zamanı bildirib. “Paşinyan deyib: "6 ildir hakimiyyətdəyik, bu qədər qalacağımızı gözləmirdim".

**Politoloq Elxan Şahinoğlu** isə yazır ki, Ermənistanın müxalifət mətbuatı Nikol Paşinyanın tərəfdarlarını terrorla hədələməyə başlayıb: “Yazırlar ki, son günlər hakim "Mülki Müqavilə" partiyasının ofisi və üzvlərinin evləri qarşısında partlayışlar baş verir, polis bölmələrinə hücumlar qeydə alınır və s. Müxalif mətbuat bunları misal göstərərək erməni cəmiyyətinə təlqin etməyə çalışır ki, hakim partiyanın üzvləri həyatları üçün qorxmağa başlayıblar və hakimiyyətin devrilməsi halında iztirablarla üzləşəcəklərindən çəkinirlər. Mətbuat onu da yazır ki, hadisələrin nəzarətdən çıxacağı halında baş nazir Nikol Paşinyan ölkəni tərk edəcək və Qərb ölkələrindən birində sığınacaq tapacaq, hakim partiyanın digər üzvləri isə qaça bilməyəcəklər.

Müxalifətin mətbuat vasitəsilə yayımladığı məqalələrin məqsədi aydındır. Müxalifət terror yolu ilə hakim partiya üzvlərini qorxudur ki, Paşinyana tabe olmayın, əks halda, sizi ölüm və həbs gözləyir. Seçki və küçə mitinqləri yolu ilə hakimiyyətə gələ bilməyən müxalifət bu üsulla hakim partiyanın içində fikir ayrılığının dərinləşməsinə və Nikol Paşinyanın hökumət içində mövqelərinin zəifləməsinə çalışır. Müxalifətin bu planlarından Paşinyan xəbərdardır. Ona görə də baş nazir tez-tez partiyasının qapalı toplantılarını keçirərək partiyadaşlarıyla müxtəlif mövzularda müzakirələr aparır. Bu Paşinyana ona görə lazımdır ki, kimin necə düşündüyünü özü üçün müəyyənləşdirə bilsin. Hökumət üzvlərindən və hakim partiya funksionerlərindən hələ ki Paşinyan əleyhinə açıqlama verən yoxdur. Ancaq bunun daima belə olacağının təminatı da yoxdur”.

❑ **E.PAŞASOY, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 54 (8427) 29 mart 2024



# Azərbaycanda pensiyaçıların sayı niyə azalır?

## Təqaüd yaşının artırılması pensiyaçıların sayına təsir göstərən başlıca amillərdən biridir

**Azərbaycanda pensiyaçıların sayında azalma müşahidə olunur. Belə ki, ötən il pensiyaçıların sayı 18 200 nəfər azalıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu il yanvarın 1-nə qədər 1 milyon 96 min pensiyaçı qeydiyyatdan keçib. Bu, əhalinin 10.8 faizi deməkdir. Pensiyaçıların 64,0 faizi yaşa, 23,6 faizi əlilliyə, 12,4 faizi isə ailə başçısını itirməyə görə pensiya alır.**

Mövzuya münasibət bildirən iqtisadçı-ekspert Elşad Məmmədov Bakupost.az-a açıqlamasında deyib ki, pensiyaçıların sayının azalmasına səbəb Azərbaycanda qadınların pensiya yaşının tədricən 65-ə çatdırılmasıdır. O qeyd edib ki, Azərbaycanda kişilərin pensiya yaşı 63, qadınlarda isə 60 idi. 2017-ci ildən başlayaraq pensiya yaşı hər il 6 ay artırılır.

"Əmək pensiyaları haqqında" Qanuna əsasən, kişilərin yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2021-ci il iyulun 1-dək, qadınların yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2027-ci il iyulun 1-dək hər il 6 ay artırılır. Artıq kişilər üçün pensiya yaşı 65 yaşdır və bu proses 2021-ci ildə başa çatıb. Qadınların pensiya yaşının hər il 6 ay artırılması isə 2027-ci ilə qədər davam edəcək və qadınların da pensiya yaşı 65 yaşa çatdırılacaq.

**İqtisadçı ekspert Natiq Cəfərli** hesab edir ki, Azərbaycanda qanunvericiliyə edilən dəyişikliyə görə hər il 6 ay olmaqla, təqaüd yaşının artırılması təqaüdçülərin sayına təsir göstərən başlıca amillərdən biridir: "Təqaüd yaşına çatacaq və ya təqaüd yaşında olan yaşlı insanların müxtəlif xəstəliklər üzündən həyatdan köçməsinin də statistik rəqəmlərə təsiri var. Həmçinin qanunvericiliyə edilən bəzi dəyişikliklərlə vaxtından əvvəl təqaüdə çıxmaq məhdudlaşdırıldı, əlilliyi olan insanlar üçün müəyyən tələblər sərtləşdirildi, təsnifat dəyişdirildi, artıq pensiya birinci, ikinci və ya üçüncü qrup əlilliyə görə deyil, faiz nisbəti ilə hesablanmağa başlandı. Beləliklə, bütün bunlar təqaüdçülərin sayının azalmasına təsir edir".

**Natiq Cəfərli qeyd edib ki, Azərbaycanda təqaüd sisteminə, təqaüd yaşı məsələsinə, təqaüdə çıxanların təsnifatına yenidən baxılmasına, bəlkə də təqaüd yaşının azaldılmasına ehtiyac var. Çünki ölkədə demoqrafik dinamikaya baxanda təqaüd yaşının artırılmasının o qədər də əhəmiyyəti olmadığını görürük:** "Məsələn, Avropada əhali qocadır, doğuş dinamikası aşağıdır, gənclərin sayı azdır, bu da gələcəkdə iş yerləri ilə bağlı problemlər yaradacaq deyə təqaüd yaşını artırırlar. Bizdə isə bununla bağlı problem yoxdur".



# Xoşbəxt dövlətlər sırasında 101-ci yerimiz

## Ekspertlərin fikrincə, hesabat qərəzlidir, çünki...

**ABŞ Kolumbiya Universitetinin "Yer İnstitutu" (Earth İnstitute) və "Davamlı İnkişaf Mərkəzi" (Center for Sustainable Development) tədqiqat mərkəzləri xoşbəxtliyin səviyyəsinə görə dünya ölkələrinin reytinqini hesablayıb.**

Son araşdırmanın nəticələrinə dair məlumatlar 2024-cü ilin martında dərc edilib. Bir neçə meyardan ibarət ümumi indeks üzrə Azərbaycan 143 ölkə arasında 101-ci yeri tutub. "Turan" yazır ki, araşdırma 2023-cü illə müqayisədə xoşbəxtlik səviyyəsində əhəmiyyətli enmə qeydə alıb. Həmin vaxt Azərbaycan 88-ci yerdə olub. Eyni zamanda 30 yaşınadək gənclər arasında aparılan sorğulara əsasən, Azərbaycan 95-ci, orta yaşlı vətəndaşlar arasında 103-cü, 60 yaşdan yuxarı şəxslər arasında 108-ci yeri tutub. Yeddinci dəfədir ki, dünyanın ən xoşbəxt adamları Finlandiya vətəndaşları, ən qeyri-xoşbəxt adamları isə Əfqanıstan sakinləridir. 2023-cü ildə olduğu kimi siyahını Əfqanıstan və Livan bağlayır.

Azərbaycanlılar üçün bizim qonşularımız və keçmiş SSRİ ölkələri maraqlıdır. Bizdən daha pis ukraynalılar yaşayırlar (105-ci yer), bu, Rusiyanın həmin ölkəyə qarşı ağır müharibəsi ilə izah edilə bilər. Müharibəni fəlakətli şəkildə uduzan Ermənistan 82-ci, Gürcüstan 91-ci , Rusiya 72-ci, İran 100-cü, Türkiyə 98-ci yerdədir. Qazaxıstan 49-cu, Özbəkistan 47-ci yerdədir. ABŞ 23-cü, İngiltərə 20-ci yeri tutub. 47-ci yeri tutan Özbəkistan Orta Asiyanın ən xoşbəxt ölkəsi kimi tanınıb.

Xoşbəxtlik reytinqinin tərtibçiləri Birləşmiş Millətlər Təşkilatının himayəsi altında "Davamlı inkişaf həlləri şəbəkəsi" (UN Sustainable Development Solutions Network) qlobal təşəbbüsü çərçivəsində çalışırlar. Reytinq hazırlanarkən milli institutların tərtib etdikləri göstəricilər nəzərə alınır. Bunlar rifah, adambaşına düşən ÜDM səviyyəsi, uzun ömürlülük, vətəndaş azadlıqlarının olması, təhlükəsizlik və sabahkı günə inam hissi, ailələrin sabitliyi, məşğulluq təminatları, korrupsiyanın səviyyəsi, habelə cəmiyyətin vəziyyətinin dolayı göstəriciləridir.

**Milli Məclisin deputatı Ceyhun Məmmədov mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, bu hesabatların səmimiliyinə və doğruluğuna inanmır:** "Ola bilməz ki, bu qədər fərq yaransın. Düşünürəm ki, bütün hesabatlarda olduğu kimi bu hesabatda da Azərbaycanla bağlı məsələlər həqiqətə uyğun deyil. Burada ölkəmizə qarşı qərəz, təxribat özünü açıq şəkildə göstərir, bu, birmənalıdır. Bu gün Azərbaycanın bu qədər inkişaf etməsinə baxmayaraq ölkəmizin bu formada qiymətləndirilməsi qəbuledilən deyil. Azərbaycan həm təhlükəsizlik, əhalinin yaşayışı baxımından dünyanın öndə gedən ölkələrindən biridir. Bu gün ölkəmizdə insanların yaşayışı dövlət səviyyəsində kifayət qədər yüksəkdir. Azərbaycanın 101-ci yerdə olmasını da əsaslı, dəqiq fakt kimi saymıram. Burada bir məqama diqqət çəkmək istəyirəm. Bizim bəzi vətəndaşlarımızın naşükürlüyü, digər ölkələrdəki vəziyyətlə bağlı məlumatsızlığı da burada müəyyən qədər rol oynayır. Təəssüf ki, insanlarda vəziyyətlərindən xeyli şikayətlənmə var. Bir daha qeyd edirəm, ərəb ölkələrini, ümumiyyətlə, müsəlman ölkələrini yaxşı tanıyıram. Bu gün Azərbaycan yaşayış baxımından ən yaxşı ölkələrdən biridir. Bütün bunlara baxmayaraq, vətəndaşlarımızın bir qismi yenə də narazıdır, əlində olan imkanları qiymətləndirmirdir. Bəzi vətəndaşlarımız düşünür ki, onların yerinə hər şeyi dövlət etməlidir, işləməsələr də dövlət onlara vəsait verməlidir. Dövlət pensiya, müavinət verir. İşləmək istəməyən adama dövlət pul verməli deyil. Bu gün ölkəmizdə kifayət qədər iş yerləri var. O mənada ölkəmizin bu sıralamada olması anlaşılan və qəbuledilən deyil. Burada qərəz, hesabatın dəqiq aparılmaması faktoru var. İkincisi isə insanların öz yaşayış şəraitini düzgün qiymətləndirməməsi də burada rol oynayır. İnsanlar əllərində olan imkanları düzgün qiymətləndirməyi bacarmalıdırlar".

**Sosioloq Üzeyir Şəfizadə də mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, bir neçə ildir xoşbəxtlik indeksi üzrə qiymətləndirmələr aparılır:** "BMT-nin müxtəlif qurumları, digər nüfuzlu sorğu mərkəzləri tərəfindən də belə sorğular aparılır. Bu sorğuların nəticələri heç də həmişə reallığı əks etdirmir. Birincisi, bu sorğuya cəlb olunanların reprezentativliyi nə dərəcədə orada göstərilir?! Həm də xoşbəxtlik bir qədər ruhsal, an məsələsidir. İnsan hansı anda özünü necə hiss edirsə, o şəkildə özünü ifadə edir. Göstərilən nəticələrdən belə bəlli olur ki, bu sorğu keçirilərkən milli institutların məlumatlarına istinad olunub. Hansı institutlara istinad olunub, bu çox maraqlı məsələdir. Milli institutlar nə dərəcədə gerçəkliyi əks etdirib, hansı maraqlarla fəaliyyət göstərib, bilinmir. Çünki əksərən bir sıra beynəlxalq təşkilatlar bu və ya digər ölkələrdə bəlli bir qruplarla, qeyri-hökumət təşkilatları ilə ələqəyə girirlər, həmin ölkələrə bir növ təzyiq aləti kimi bənzər tədqiqatlar həyata keçirirlər, onların informasiyalarına əsaslanır, istinad edirlər. Bu baxımdan biz xoşbəxtlik indeksi meyarlarına baxanda görürük ki, Azərbaycan heç də xoşbəxt olan ölkələrdən geri qalmır. Ən azı bir faktı deyə bilərəm ki, Azərbaycan zəfərlə başa çatan II Qarabağ savaşından sonra toplum səviyyədə xoşbəxtlik hissini yaşadı. Xoşbəxtlik həyatın bütün sahələrində ictimai məmnunluqla özünü göstərdi. Bu, ölkə əhalisini uzun müddət davam edən melanxoliyadan azad etdi, gələcəyə ümidini artırdı. Bu aura xoşbəxtliklə bağlı sorğuya cəlb olunmuş respondentlərdə ifadə olunmalıydı. Amma nədənsə bu orada əks olunmur. Təkcə 2024-də yox, 2020-ci ildən sonra keçirilən sorğularda bu dinamikanı izləyirəm. Həmin hadisənin təsiri sorğu nəticələrində yoxdur. Finlandiya və digər Skandinaviya ölkələri xoşbəxtlik indeksində öndə göstərilir. Finlandiya bir neçə ildir ki, liderliyi əldən vermir. Amma biz baxsaq, görərik ki, Finlandiyada əhalinin ruhsal vəziyyətində problem var, intiharların səviyyəsinə görə öndə gedən ölkələrdən biridir. Hətta Finlandiyada depressiya ölkə səviyyəsində stiqmaya çevrilib. İnsanlar bu stiqmadan qurtulmağın yollarını axtarır, tədqiqatçılara üz tuturlar. Düzdür, Finlandiyada depressiyanın əsas səbəbi kimi iqlimi - qaranlığı, soyuğu əsas göstərirlər. Fakt budur ki, orada depressiya, intihar halları yüksəkdir. Azərbaycanda intiharlar digər ölkələrə nisbətən azdır. Vətən müharibəsindən sonra insanlarda gələcəyə ümid artıb. Prezident İlham Əliyev hətta postmüharibə dövrü üçün də yeni hədəflər müəyyənləşdirdi, insanları səfərbər etdi. Psixoloji, ruhsal baxımdan ölkənin əhval-ruhiyyəsi heç də xoşbəxtlik indeksinə görə öndə olan ölkələrdən geri qalmır. Əlbəttə, hər bir cəmiyyətdə olduğu kimi, bizim cəmiyyətimizdə də neqativlər ola bilər. Ancaq biz daim çalışmalıyıq ki, bu neqativlər aradan qalxsın. Ancaq təşkilat Ermənistanı bu indeksdə öndə göstərib. Burada hansı obyektivlikdən söhbət gedə bilər ki, Ermənistan məğlub ölkədir, qeyri-müəyyən vəziyyətdədir, gələcəyi dumanlı bir vəziyyətdə olan ölkədir. Necə ola bilər ki, Azərbaycandan öndə olsun, bu, nonsensdir. Bu cür faktorlar sorğu və tədqiqat nəticələrini bir qədər şübhə altına alır".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 54 (8427) 29 mart 2024

# "Crocus"dakı terror azərbaycanlıları işsiz qoya bilər

## Ekspert: "Həmyerlilərimiz Rusiyada əsasən ticarətlə məşğul olsalar da..."

**Rusiyadakı terror hadisəsindən sonra hakimiyyət miqrantların ölkədə qalma şərtlərini sərtləşdirmək niyyətindədir. Tənzimləmə üçün müqavilə şərtlərinin iki il çərçivəsində məhdudlaşdırılması planlaşdırılır.**

"Kommersant"ın yazdığına görə, qanun layihəsi artıq hazırdır. Prioritet iki il müddətində işçilərin məqsədyönlü şəkildə işə qəbulu olacaq. Sonra işəgötürən bu mexanizmdən yenidən istifadə edə biləcək, məqsədli işə qəbul isə xüsusi şirkət tərəfindən aparılacaq.

Qanun layihəsində deyilir ki, miqrantlar öz profillərinə uyğun işləməsələr, ölkəni tərk etməyə məcbur ola bilərlər. İdeya artıq Dövlət Dumasında dəstəklənib. Rusiyanın baş prokuroru İqor Krasnov bildirib ki, miqrantlar tərəfindən törədilən cinayətlərin sayı 2023-cü ildə 75% artaraq 22 minə yaxın olub.

Qeyd edək ki, Rusiyada təxminən 3 milyon civarında azərbaycanlının yaşadığı deyilir. Sözügedən qanun layihəsi bu ölkədəki azərbaycanlıların həyatına da təsir edə bilər. Miqrant azərbaycanlılarla bağlı sərt qərarların hansı mənfi nəticələri ola bilər?

**Sabiq maliyyə naziri, iqtisadi və siyasi məsələlər üzrə ekspert Fikrət Yusifov bu mövzuda "Yeni Müsavat"a çox maraqlı faktlar açıqladı:** "Rusiyanın rəsmi statistika məlumatlarına əsasən, 2023-cü ildə bu ölkədə əhalinin sayı 146 milyon 143 min nəfər olmuşdu. İl ərzində 1 milyon 857 nəfər doğulmuş, 2 milyon 25 min nəfər ölmüşdü. Doğulanlarla ölənlərin arasında fərq, ölənlərin xeyrinə 168 min nəfər təşkil etmişdi ki, bu da ölənlərin sayının doğulanların sayından 9,1% çox olması anlamına gəlir.

Bütün bu göstəricilər ortada olduğu təqdirdə Rusiya rəsmi mənbələri öz saytlarında ölkədə əhalinin artımına dair göstəriciləri dərc edir. Bəs bu artımlar nəyin hesabına baş verir? Təbii ki, bu artım Rusiyaya xaricdən, ilk növbədə keçmiş sovet respublikalarından və daha çox Orta Asiyadan gələn miqrantların hesabına baş verir. Baxın, 2023-cü ildə Rusiyaya gələn miqrantların sayı 228 min nəfər olmuşdu. Beləliklə, göstərilən ildə Rusiya əhalisinin sayının 168 min nəfər azalmasına baxmayaraq, ölkəyə bir ildə gəlmiş 228 min miqrant hesabına əhalinin təbii artımı 60 min nəfər (228 min - 168 min) təşkil etmişdi.

Bir sözlə, Rusiya bu gün özünün demoqrafik durumunu yalnız ölkəyə gələn miqrantların hesabına tənzimləyə bilir. 2000-2014-cü illərdə Rusiyanın Sankt-Peterburq şəhərində yaşamışam. Yaşadığım şəhərin bütün kommunal xidmətlərində, tikinti, yol infrastrukturunda və bu sıradan olan digər sahələrdə çalışanların (bu işləri el dilində "qara işlər" adlandırırlar) demək olar ki, hamısı müstəsna olaraq Orta Asiyadan gələn miqrantlardan və ilk növbədə tacik və özbək əsilli insanlardan ibarət idi. Orada yaşadığım müddətdə apardığım araşdırmalarla müəyyən etdim ki, Rusiyanın paytaxtı Moskvada və onun digər şəhərlərində də durum eynidir. Beləliklə, Rusiyanın demoqrafik durumunun "çulunu sudan çıxaran" və ölkənin işçi qüvvəsinə olan tələbatını ödəyənlər əsasən miqrantlardır. Bu sırada Orta Asiyadan, xüsusilə Tacikistan və Özbəkistandan gələn miqrantlar böyük üstünlük təşkil edir. Rusiya hökumətinin atdığı addımlara baxmayaraq, bu ölkədə hazırkı demoqrafik durum olduqca acınacaqlı vəziyyətdədir. Hökumətin gördüyü tədbirlər gözləntiləri qətiyyən doğrultmur. Əvvəldə dediyimiz kimi, son 2023-cü ildə Rusiyada əhalinin 168 min nəfər təbii azalması baş vermiş və bu durum yalnız ölkəyə gələn 228 min miqrantların hesabına bir qədər tənzimlənmişdi. Rusiyada demoqrafik vəziyyəti və xüsusilə də əhalinin cins tərkibindəki acınacaqlı durumu bundan sonrakı illərdə bir qədər də ağırlaşdıran amil Rusiya-Ukrayna müharibəsindəki itkilər olacaq. Bu günə olan məlumatlara görə, onların sayı 450 min nəfərdən çoxdur və bu rəqəm getdikcə artmaqdadır".

**Sabiq nazir Rusiya hökumətinin atdığı addımlardan da söz açdı:** "Son hadisə - "Crocus City Hall"-da baş vermiş terror aktından sonra Rusiya hökuməti ölkədə miqrantlarla bağlı vəziyyəti tənzimləmək üçün addımlar atmaq istəyir. Ancaq hansı addımlar atılacaq? Rusiyada bu gün on minlərlə miqrant mövcud qaydaları kobud şəkildə pozaraq fəaliyyət göstərsə də, hakimiyyət bu vəziyyəti düzəltmək üçün qətiyyət göstərə bilmir. Çünki miqrantlara göstərilən təzyiqlər sonda onların ölkəni tərk etməsi ilə nəticələnir ki, bu da Rusiya hakimiyyətinə qətiyyən sərf etmir. Bu gün Rusiyada bir neçə milyon nəfər işçi qüvvəsi çatışmazlığı fonunda hökumətin bu cür davranışı anlaşılandır. Terror aktının törədilməsində günahkar bilinən tacik əsilli şəxslərin olması, Rusiyada çalışan taciklərin kütləvi şəkildə bu ölkəni tərk etməsi ilə nəticələnməkdədir. Bu durum nə Rusiyaya, nə də Tacikistan hökumətinə lazım deyil. Rusiyada kommunal xidmətləri sferasında ən ağır işlərdə tacikləri əvəz edəcək bir başqa insanlar tapmaq olduqca müşkül bir məsələdir. Hökumət ya həmin işlərdə çalışmaq istəyənlərə taciklərə ödədiyindən 3-4 dəfə çox əmək haqqı ödəməli, ya da hər vəchlə taciklərin ölkədə qalmasına şərait yaratmalıdır. Gerçəklər bundan ibarətdir.

Yeni Rusiya hökuməti indi bu məsələnin həllində pat durumundadır. Taciklərin Rusiyanı tərk etməsinin nəticələrini Rusiya telekanalları vasitəsilə nümayiş etdirilən kadrlarda da görmək mümkündür. Məişət tullantılarının bəzi şəhərlərin mərkəzində belə günlərlə daşınmaması rus insanlarının ciddi narahatlığına səbəb olur. Əslində miqrantların Rusiyanı tərk etməsi prosesi Rusiyanın Ukraynaya hücumundan sonra başlamışdı. Müharibə başladıqdan sonra rus rublunun kəskin ucuzlaşması səbəbindən miqrantlar möhkəm valyuta hesabı ilə əvvəlkindən daha az qazanc əldə edirlər. Təbii ki, onlar qazandıqları pulun bir hissəsini vətənlərinə, öz doğmalarına göndərirlər. Digər tərəfdən, miqrantları bəzən haqsız olaraq yığıb cəbhəyə göndərirlər ki, bir çoxları da bu səbəbdən Rusiyanı tərk edirlər.

Rusiyada bir qədər fərqli aqibəti azərbaycanlılar yaşayır. Bizim həmyerlilərimiz Rusiyada əsasən ticarətlə məşğul olsalar da, rus rublunun ucuzlaşması səbəbindən onlar da ciddi problemlərlə üzləşirlər və bəziləri geriyə, Azərbaycana qayıdır".

❑ Cavanşir ABBASLI,
"Yeni Müsavat"




## Moskvanın terakt barədə əvvəldən məlumatı olub?

**Rusiya xüsusi xidmət orqanları "Crocus City Hall" konsert zalında gözlənilən terror aktı barədə əvvəlcədən məlumatlı olub. Bunu Ukrayna Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsinin rəisi Kirill Budanov bildirib.**

"Ən azı 2024-cü il fevralın 15-də Rusiyanın hazırlıqdan xəbəri var idi. Bu məlumat Suriyadakı kəşfiyyat idarəsindən Moskvaya çatdırılıb. Ona görə də nağıl danışmasınlar ki, qəribə bir şəkildə hər şey birdən-birə reallaşıb", - Budanov vurğulayıb.

Onun sözlərinə görə, Kreml yaraqlıların Rusiyaya hara və hansı iki ölkə vasitəsilə gələcəyini bilirdi.

"Niyə buna icazə verdilər? Bir neçə variant var: birincisi, onların adəti üzrə, indi bir neçə məmuru vəzifədən uzaqlaşdırmaq üçün "qüllələr" arasında döyüşdür. Başqa bir ehtimal odur ki, onlar həqiqətən baş verəcəkləri qiymətləndirmədilər. Onlar Ukraynanı günahlandırmaq istəyirdilər", - Budanov bildirib.

Terrorda "Ukrayna izi"nin axtarılmasından danışan Ukrayna hərbi kəşfiyyatının rəhbəri qeyd edib ki, Rusiya hakimiyyəti "Crocus City Hall"da baş verənlərlə bağlı öz versiyalarını artıq üç dəfə dəyişib.

"Məni şəxsən ittiham edən Patruşev və Bortnikov izahat verdilər və bütün bunların müəllifi Ukraynadır. Bu axmaqlıqdır. Yeri gəlmişkən, Rusiya Federasiyasının hakimiyyət orqanları bizim düşmənimiz olsa da, dinc əhaliyə qarşı terror aksiyalarını kökündən bəyənmirəm", - Budanov bildirib.

## Rusiya "Telegram"ı bloklamayacaq

**Rusiyanın "Telegram"ı bloklamaq planı yoxdur. Bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib.**

"Xeyr, hazırda belə planlar yoxdur" - Peskov "Life"a müsahibəsində müvafiq suala cavab verib.

Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov Pavel Durovu "Telegram"a daha yaxından nəzarət etməyə çağırıb, çünki bu gün messencer getdikcə terrorçuların əlində alətə çevrilir.

"Əlbəttə, biz Pavel Durovdan daha çox diqqət gözləyərdik, çünki texnoloji nöqteyi-nəzərdən bu unikal və fenomenal resurs əslində bizim nəslin gözü qarşısında böyüyüb. Amma o, yəni "Telegram" getdikcə daha çox terrorçuların əllərində alətə çevrilir və terror məqsədləri üçün istifadə edilir" - Peskov bildirib.

Bundan əvvəl kibertəhlükəsizlik üzrə ekspertlər "Crocus City Hall"da baş verən terror aktından sonra şəbəkədə zərərli fəaliyyətin artdığını qeyd etmişdilər.

Xatırladaq ki, martın 22-də silahlı şəxslər Moskva vilayətində yerləşən "Crocus City Hall" konsert zalına soxularaq, avtomatlardan tamaşaçılara atəş açıblar. Son məlumatlara görə, 140 nəfər həlak olub, 182 nəfər yaralanıb.

YENİ MÜSAVAT
N 54 (8427) 29 mart 2024

# ABŞ və Aİ Bakıya qarşı hansı təlimatlar hazırlayır?

## STM rəsmisi: "Paşinyanla görüşdə hərbi-siyasi və təhlükəsizliyə dair sənədin imzalanması mümkündür"

**Aprelin 5-də Brüsseldə Ermənistan baş naziri Nikol Paşinyanın ABŞ dövlət katibi Entoni Blinken və Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayn ilə görüşü keçiriləcək.**

ABŞ Dövlət Departamentinin mətbuat katibi Metyu Miller gözlənilən görüşün məqsədləri haqqında suala cavabda belə deyib: "Ermənistan və Azərbaycan hökumətləri ilə bağlı məqsədlərimiz tərəfləri mövcud fikir ayrılıqlarını aradan qaldırmağa və möhkəm və etibarlı sülh sazişinin əldə edilməsi üzərində işləməyə təşviq etməkdən ibarətdir".

Bir müddət əvvəl Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan görüşün Brüsseldə keçiriləcəyini və orada Ermənistanın inkişafı və sabitliyinin möhkəmləndirilməsi məqsədilə üçtərəfli əməkdaşlığın yollarının müzakirə ediləcəyini bildirib.

Rəsmi Bakı Avropa İttifaqı və ABŞ-ın Ermənistana hərbi yardım göstərməyi planlaşdırdığını hesab edir və qarşıda duran görüşlə bağlı narazılığını bildirib. Xüsusən Azərbaycan XİN-in mətbuat katibi Ayxan Hacızadə Azərbaycan-Ermənistan sərhədində Aİ-nin Monitorinq Missiyasının yerləşdirilməsindən narazılığını ifadə edib. "Bu missiya anti-Azərbaycan təbliğat aləti kimi fəal şəkildə istismar edilməkdədir. Bundan əlavə, Kanadanın AİEM-ə qoşulması ilə o, de-fakto NATO missiyası xüsusiyyətinə malikdir. Bu addımlar həmçinin AİEM-i çəkindirici qüvvə adlandıran və heç bir əsas olmadan Azərbaycanın mümkün müdaxiləsi barədə illüziya yaradan bəyanatlarla müşayiət olunur", - deyə mətbuat katibi qeyd edib.

O, həmçinin Fransanın Ermənistanı öldürücü və hücum tipli silah növləri daxil olmaqla, hərbi texnika ilə təchiz etmək planlarının "narahatlıq doğurduğunu" bildirib. "Avropa Sülh Fondu çərçivəsində Ermənistana hərbi yardımın göstərilməsi planları və aprelin 5-də keçiriləcək toplantının hərbi komponentləri nəzərdə tutduğuna dair məlumatlar əlavə narahatlıq doğurur və regionda sülh quruculuğu səylərinə xələl gətirir. Avropa İttifaqı və ABŞ tərəfindən bu kimi fəaliyyətlər açıq şəkildə birtərəfli və qərəzli xarakter daşıyır", - deyə Hacızadə qeyd edib.

Sonda o, Brüsseldə keçiriləcək görüşün Ermənistanın Azərbaycana qarşı yenidən mümkün təxribatlarında Aİ və ABŞ-ın Ermənistanı dəstəkləyəcəyinə dair bu ölkədə təhlükəli illüziya yarada biləcəyini qeyd edib və bu halda, Aİ və ABŞ-ın Ermənistanın sabitliyi pozan hər hansı mümkün hərəkətinə görə məsuliyyəti bölüşəcəklərini vurğulayıb.

Bəs ABŞ və Avropa İttifaqı Bakıya qarşı Ermənistana hansı təlimatlar verəcək? Azərbaycan-Ermənistan sülh sazişini bəhanə edib əslində Vaşinqton və Brüssel Ermənistanın anti-Rusiya ritorikasına dəstəyini nümayiş etdirmək istəyir?

**Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri, siyasi şərhçi İlyas Hüseynov** "Yeni Müsavat"a bildirdi ki, aprelin 5-də Brüsseldə keçiriləcək görüş ciddi suallar yaradır. Bu görüşdə, bəzi ehtimallara görə, hərbi-siyasi və təhlükəsizlik mövzusunda Ermənistanla tərəflər arasında Paktın imzalanması da gündəmdədir. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycanın iştirakı olmadan, Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı olmadan regional təhlükəsizlik məsələləri müzakirə olunur: "Biz bunu Avropa Siyasi Birliyinin Qranadada keçirilən zirvə görüşündə də gördük. Yəni Azərbaycanın iştirakı olmadan müəyyən məsələlər müzakirəyə çıxarılırdı. Sanki bu prosesi davam etdirirlər. Amma yeni fazada. Çünki NATO-nun baş katibi Yens Stoltenberq bu yaxınlarda Cənubi Qafqazın hər üç ölkəsinə səfər elədi. Azərbaycandan səfəri başladı, Gürcüstan və Ermənistanla davam elədi. Bu səfərin əsl mahiyyətini biz görürük. Çünki NATO-nun baş katibinin səfərindən sonra indi haqqında söhbət etdiyimiz Brüssel görüşü meydana çıxdı. Baxmayaraq, ilkin fikirlər bundan ibarətdir ki, bu görüş və müzakirə olunan mövzular üçüncü tərəfə qarşı yönəlməyib, lakin biz anlayırıq ki, Ermənistanın silahlandırılması, müdafiəsi məsələsi müzakirə olunursa, bu, bizim milli maraqlarımıza qarşıdır. Çünki 30 il ərzində Ermənistan Azərbaycan ərazilərini işğal edib, bölgədə genosid, ekosid həyata keçirib və bu gün də sülhdən yayınır, işğalçılıq niyyətlərindən əl çəkmir. Bu gün sanki ABŞ və Avropa regionda sülh əleyhinə fəaliyyətlə məşğuldur. Yeni geosiyasi reallıqları qəbul etmək, sülh müqaviləsini imzalamağı təşviq etmək əvəzinə Ermənistanın silahlandırılması üçün təşəbbüslər irəli sürülür. Həmçinin Fransa və Hindistanın Ermənistana verdiyi silahlardan sonra biz görürük ki, artıq daha güclü müstəvidə bir fəaliyyət təmin olunmaqdadır. Avropa İttifaqının mülki missiyasının tərkibinin genişləndirilməsi və bu missiyanı daha da inkişaf etdirmək məqsədləri gizlədilmir. Bu proses həm də Rusiyanın maraqlarına qarşı prosesdir. Lakin regionun məsələləri regionda həll edilməlidir tezisini irəli sürən 3+3 formatının tərəflərinin susqunluğu anlaşılan deyil. Rusiya və İran bu məsələdə qəti fikir ifadə etməlidir".



Ekspert qeyd etdi ki, Rusiya-Ukrayna müharibəsi, eləcə də Yaxın Şərqdə gedən müharibə Rusiya və İranı həmin müharibələrə diqqəti ayırmağa məcbur edir. Amma şübhəsiz ki, Cənubi Qafqaz barədə ən fundamental məsələlərə dair onların da qəti etirazı və fikir bildirməsi mühüm əhəmiyyət kəsb edir.

**Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# "Eurasiya.net": "İrəvan vaxtı uzadır..."

## Təhlildə qeyd olunur ki, İrəvandakı müxalif siyasətçilər hökumətin təhvil-təslim planına müqavimət göstərir

**Ermənistan hökuməti 1990-cı illərdən öz nəzarətində olan 4 kəndin Azərbaycana verilməsi planına görə hər tərəfdən təzyiqlərlə üzləşir. Azərbaycan tərəfinin fikrincə, qayıdış kifayət qədər sürətli baş vermir, bir çox erməni isə bunun, ümumiyyətlə, baş verib-verməyəcəyi ilə maraqlanır.**

Reyting.az xəbər verir ki, bu barədə "Eurasiya.net" yazıb.

Təhlildə qeyd olunur ki, İrəvandakı müxalif siyasətçilər hökumətin təhvil-təslim planına müqavimət göstərir və deyirlər ki, hər hansı belə addım Ermənistanın milli təhlükəsizliyini zəiflədəcək, ölkənin Azərbaycanın yenidən hücumu ehtimalına qarşı həssaslığını artıracaq:

"Nikol Paşinyan hesab edir ki, ərazilərin qaytarılması məsələsində Bakı ilə razılaşmaqdan imtina münaqişənin yenidən başlanması riskini daha da artırır. Onun fikrincə, sərhədin delimitasiyası sazişi ilə bağlı mübahisələrin tez həlli növbəti zorakılığın qarşısını almaq üçün ən yaxşı şansdır.

Baş nazir martın əvvəlində etiraf edib ki, 1991-ci ildə Qazaxıstanın Almatı şəhərində imzalanmış müqaviləyə əsasən, sözügedən dörd kənd həmişə Azərbaycanın tərkibində olub. Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızıl Hacılı kəndləri 1990-cı illərdə, 1994-cü ildə Almatı bəyannaməsi imzalandıqdan sonra başa çatan Birinci Qarabağ müharibəsi zamanı Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib.

Ermənistanda təhvil-təslim məsələsi ilə bağlı daxili gərginliyin artması fonunda Azərbaycanda media İrəvana münasibətdə sərt xətt götürüb.

Report.az-dakı şərhdə Ermənistan kəndləri tezliklə geri verməsə, Azərbaycan hərbçilərinin onları alacağına işarə edilib. Şərhdə təkcə dörd kəndin deyil, həm də Ermənistanla sərhəddə yerləşən və mübahisəli olan dörd kiçik Azərbaycan eksklav ərazisinin birtərəfli qaydada qaytarılmasına çağırışlar qaldırılıb.

"Ola bilər ki, Paşinyan, sadəcə olaraq, bu yaşayış məntəqələrinin Azərbaycan ərazisi olduğunu deməklə işi uzatmağa çalışır. Çünki bu bəyanat hələ heç nə demək deyil. Biz Ermənistanın baş nazirinin oxşar ritorikasını əvvəllər də bir sıra hallarda görmüşük, rəsmi İrəvanın sözləri və əməlləri üst-üstə düşmür", - şərhdə deyilir.



Daha sonra vurğulanır: "Zaman Ermənistanın əleyhinə işləyir. Paşinyan öz qüdrəti və dövlətçiliyi haqqında düşünürsə, sözünü əməldə sübut edib, səkkiz kəndi qeyd-şərtsiz qaytarmalıdır. Əks halda, Ermənistan da, beynəlxalq ictimaiyyət də nə olacağını çox gözəl bilir və buna görə məsuliyyət daşıyırlar. Yeni Azərbaycan beynəlxalq hüquq normalarına uyğun olaraq öz torpaqlarını hərbi işğaldan azad edəcək".

Medianın diqqət çəkdiyi döyüşkən mövqe Bakı ilə Avropa İttifaqı institutları arasında söz savaşına yeni təkan verdi. Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar Azərbaycan mediasının Ermənistana qarşı "zərbə" endirməsinə cavab olaraq, Azərbaycanın yeni hərbi əməliyyatları ilə bağlı təhdidlərini "qəbuledilməz" adlandırıb.

"Sərhədin delimitasiyası ilə bağlı həqiqi danışıqlara ehtiyac var və bütün ərazi mübahisələri dinc yolla və razılaşdırılmış prosesin bir hissəsi kimi həll edilməlidir", - Klaar "Twitter" kimi tanınan platformada yazıb.

Klaarın şərhlərinə reaksiya verən Azərbaycan Xarici İşlər Nazirliyi faktiki olaraq Aİ nümayəndəsinə istirahətə yollanmağı təklif edib. XİN sözçüsü Ayxan Hacızadə bildirib ki, Klaar "qərəzdən yaxa qurtara bilmir və yalnız Azərbaycan kəndlərinin qaytarılması ilə bağlı legitim diskusda pis şeyləri görür, amma erməni mediasında qanunsuz işğalın davam etdirilməsi üçün mübarizə çağırışlarına tamamilə göz yumur".

# TV-lərin o proqramlarla bağlı yarımçıq qərarı...

## Qulu Məhərrəmli: “Yayım vaxtının dəyişdirilməsi heç nəyi həll etmir”
## Əhməd Qəşəmoğlu: “Həmin verilişləri birdən-birə bağlamaq gərginlik yarada bilər”

**ARB TV-də yayımlanan 3 verilişin yayım saatı dəyişdirilib. Bu barədə telekanal məlumat yayıb.**

Məlumata görə, Elgiz Əkbərin aparıcısı olduğu “Elgizlə izlə” verilişi 14:00-16:30, Zümrüd Bədəlovanın aparıcısı olduğu “Xəbər-ətər” verilişi 10:50-13:00, Xoşqədəm Hidayətqızının aparıcısı olduğu “Səni axtarıram” verilişi isə 16:30-19:00-da yayımlanacaq.

Bununla da sözügedən verilişlərin müddəti 2 saata yaxın azaldılıb.

Xatırladaq ki, bundan əvvəl ATV telekanalında yayımlanan “Bizimləsən” verilişinin aparıcısı Zaur Baxşəliyev də verilişinin vaxtının azaldıldığını açıqlayıb.

Qeyd edək ki, bir müddət əvvəl ATV, "Xəzər", ARB və "Space" telekanallarının rəhbərləri Prezident Administrasiyasına dəvət olunublar. Onların iştirakı ilə keçirilən iclasda kanallarda yayımlanan bir sıra şou və sosial verilişlərdəki biabırçı vəziyyətlə bağlı ciddi iradlar səsləndirilib.

“Biz sosial veriliş deyəndə nəyi nəzərdə tuturuq? Kənddən, kəsəkdən unudulmuş, atılmış, cəmiyyət üçün yararsız adamları efirə çıxarmaq sosial problemi həll etmək deyil axı. Ona görə bu verilişlərin adını dəyişmək lazımdır”. Bunu Bakupost.az-a açıqlamasında Xalq artisti Şeyx Əbdül Mahmudbəyov deyib. Şeyx Əbdül efirlərimizdə ailə-məişət mövzusundan bəhs edən verilişlərin cəmiyyəti uçuruma apardığını bildirib:

“Şapalaqla üz qızarda-qızarda, yalan danışa-danışa hara kimi gedəcəyik? Prinsip etibarilə söhbət o verilişlərin efir vaxtından deyil, efirdəki rüsvayçı, biabırçı hallardan getməlidir. Əlaqədar dövlət strukturları bu haqda niyə danışmırlar?! Əgər bir rayonun məişət, sosial problemini hansısa veriliş həll edirsə, onda onlar rayonda niyə oturublar? Bütün bu məsələlər kompleks həll edilməlidir”.

Amma verilişləri bağlamaq efiri qapatmaq deməkdir. Bəs çıxış yolu nədir?





Mövzu ilə bağlı **teletənqidçi, professor Qulu Məhərrəmli** “Yeni Müsavat”a danışıb. Qulu Məhərrəmli deyib ki, bu gün ciddi şəkildə tənqid olunan şou verilişləri və onların aparıcıları ilə bağlı atılan addımlar çox həssaslıqla qarşılanır: “Bu məsələdə təbii ki, televiziyaları da başa düşmək lazımdır. Ona görə ki, birdən-birə çox kəskin addım atmaq mümkün deyil. Ona görə ki, veriliş istehsalı xeyli vaxt aparır, xüsusi struktur dəyişikliyi, kadr məsələsi tələb olunur və eləcə də verilişlərin yayım cədvəlində oturması, saatın hesablanması, işçi heyətin seçilməsi, onların vəzifə bölgüləri və sairə, bunların hamısı xeyli zaman aparır. Yayım vaxtının dəyişdirilməsi, hesab edirəm ki, heç nəyi həll etmir. Həmin verilişlərin öz aparıcıları var, yəqin ki, auditoriya yenə də onu tapıb baxacaq.

Burada önəmli olan televiziyaların özünün o proqramlara yanaşması məsələsidir. Yəni onların konsepsiyası həmin şəkildə qalır, yoxsa hansısa dəyişikliyə məruz qalacaq, aparıcı işi o üslubda qalacaq, yoxsa dəyişiləcək - bunlar həll olunmalıdır. Bir sözlə, daha çox ciddi konseptual məsələlər, yanaşma, məqsəd, verilişin elementlərinin müəyyənləşdirilməsi, aparılma tərzi və sairə, bunların hamısı bir yerdə, kompleks şəkildə həll olunmalıdır.

Ola bilər ki, verilişlərin vaxtının dəyişdirilməsi həm də bir sınaq məqsədilə həyata keçirilir. Bu məsələ özünü doğruldacaq, ya yox, bu, artıq televiziyanın strategiya və taktika məsələsidir.

Təbii ki, biz düşünürük ki, bir qədər fərqli məzmunda, formada olan şouların ərsəyə gətirilməsi daha məqsədəuyğundur. Çünki adları çəkilən aparıcılar bəlli bir obrazdır. Onlar harada görünsələr, yenə həmin effekti yaradacaqlar. Bu baxımdan televiziyalar bununla bağlı ciddi düşünməlidir".

**Sosioloq Əhməd Qəşəmoğlu da qeyd edib ki, verilişləri birdən-birə tam bağlamaq tamaşaçı auditoriyası arasında gərginliyə səbəb ola bilər:** “Əlbəttə ki, kəskin dəyişikliklər etmək həmişə gərginlik yaradır. Çünki əhalinin bir hissəsi doğrudan da bu verilişlərə aludə olub. Onları müəyyən qədər maarifləndirmək, özünün rəyinin formalaşmasına kömək etmək lazımdır. Buna görə də hesab edirəm ki, bu məsələləri tədricən həyata keçirmək lazımdır. Beləliklə, qeyd etdiyim kimi, verilişləri birdən-birə bağlamaq müəyyən tamaşaçı təbəqəsi arasında gərginliyə səbəb ola bilər. Lakin dərhal nə etmək olar? Tədricən həmin verilişlərin içərisindən şıltaq, gözdən yaş axıdan, ucuz sensasiyaları çıxarıb, yerinə keyfiyyət dəyişikliyi etmək olar. Yəni tədricən keyfiyyətli, maarifləndirici, əxlaqi dəyərləri aşılayan yönə istiqamətləndirmək olar”.

**Sosioloq çıxış yolu ilə bağlı da öz təkliflərini bildirib:** “Çıxış yolu nədədir? Həmin verilişlərdə əsasən neqativ tərəflər göstərilib, neqativ, ürəkağrıdan məsələlərdən danışılıb. Amma indi həmin verilişlərdə nümunəvi ailələrdən, gənclərdən də danışmaq olar. Niyə mərsiyə demək həmişə dəbdə olmalıdır? Yəni qapatmaq çıxış yolu deyil.

Həmçinin televiziya işçilərini yenidən hazırlamaq lazımdır. Hazırda bu cür verilişlər bizə lazım deyil. Biz televiziya işçilərini yenidən hazırlamalıyıq ki, onlar əxlaqi, mənəvi dəyərlər aşılayan, ölkədə sosial, hüquqi məsələlərlə bağlı problemləri ağlaya-ağlaya deyil, daha çox maarifləndirərək həll etsinlər. Aparıcıların özləri ilə yaxından söhbət etmək, onların dünyagörüşünü dəyişmək, onlara əlavə köməkçilər vermək hesabına verilişlərin xarakterini dəyişmək olar.

Beləliklə, ölkədə televiziya sahəsində ciddi işlər görmək lazımdır. Bizim indiki vaxtda televiziya kanallarımızla bağlı yeni, elmi əsaslarla hazırlanmış, xalqımızın mənəviyyatının daha da zənginləşdirilməsinə, tərəqqimizin yüksəlməsinə, qələbələrimizi daha məzmunlu vəsf edilməsinə, möhkəmlənməsinə, daha keyfiyyətli yeni nəslin yetişməsinə kömək edən televiziya platforması hazırlamağımıza çox böyük ehtiyacımız var. Belə platforma sosial, mənəvi problemlərimizin, insan haqları ilə bağlı məsələlərin dərindən təhlil edilməsinə, onların həlli üçün yollar axtarılmasına, əhatəli islahatlar aparmağımıza yardım edən məzmunlu, baxımlı verilişlər hazırlamağa imkanlar yaratmalıdır. Ortada belə ciddi platforma olarsa, o zaman qanunvericiliklə, maarifləndirmə və digər məsələlərlə bağlı hansı işlərin də görülməsinin vacibliyi üzə çıxar. Bununla bağlı televiziyaların fəaliyyətinə məsul, müxtəlif səviyyələrdə vəzifələrdə çalışan insanlara dəfələrlə şəxsi müraciətim olub; öz köməyimi də təklif etmişəm. Amma hər dəfə etinasız reaksiya görmüşəm".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# Partiyaların hesabat vaxtı gəldi - aprelin 1-dək...

## MSK hansı partiyaların qeydiyyatının ləğvi məsələsini qaldıra bilər?

**Prezident İlham Əliyevin sədrlik etdiyi Yeni Azərbaycan Partiyası 2023-cü il üzrə maliyyə hesabatı açıqlayıb. Rəsmi məlumata görə, ötən il partiyanın gəliri 32,9 milyon manatı ötüb, bunun 29,6 milyon manatdan çoxu üzvlük haqlarının, 2,4 milyon manata yaxını dövlət yardımının, qalanı başqa mənbələrin payına düşüb.**



2023-cü ilin xərcləri 22,7 milyon manatdan çox göstərilir.

Qanunvericiliyin tələbinə görə, siyasi partiyalar illik maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə aprelin 1-dən gec olmayaraq MSK-ya təqdim etməlidir. Hazırda 26 partiya dövlət qeydiyyatındadır.

MSK aprelin 1-dək illik maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə təqdim etməyən siyasi partiyalar barədə Ədliyyə Nazirliyinə məlumat verməlidir. Məlumata görə partiyaların bəziləri hələ hesabat verməyiblər. Hesabat verməyənlərin qeydiyyatı ləğv oluna bilərmi?

**AĞ Partiyanın sədri Tural Abbaslı “Yeni Müsavat”a bildirdi ki, rəhbərlik etdiyi partiya illik hesabatını MSK-ya təqdim edib:** “Buraya ildə iki dəfə partiya üzvlərinin reyestrinin təqdim olunmasından, rüblük vergi hesabatlarının verilməsi, MSK-ya illik maliyyə hesabatı verilməsi kimi öhdəliklər də daxildir ki, partiyaların üzərinə qədərindən artıq məsuliyyət qoyur. Məsələnin daha bir tərəfi var ki, dövlət büdcəsindən maliyyələşməyən partiyaların MSK-ya maliyyə hesabatı verməsinin məntiqi yoxdur. Maliyyə hesabatının məntiqlə dövlət büdcəsindən maliyyələşən siyasi partiyalar verməlidir. Partiyaların vergi hesabatları verməsi isə ümumiyyətlə aradan qaldırılmalıdır. Çünki partiya kommersiya təşkilatı deyil. Parlamentdə təmsil olunmayan partiyalar dövlət büdcəsindən maliyyələşmir. Bu da vəziyyəti daha da ağırlaşdırır. Amma buna baxmayaraq, həmin partiyalardan da maliyyə hesabatı tələb olunur. Hətta qanunda qeyd olunur ki, maliyyə hesabatı verməyən partiyanın ləğvi ilə bağlı MSK müvafiq orqanlara müraciət edə bilər. Düzdür, indiyə qədər belə bir addıma gedilməyib, amma qanunvericilikdə bu məsələ əksini tapıb. Məncə, hesabatlardan daha çox partiyaların maliyyələşməsi üzərində islahatlar aparılmalıdır”.

**Azad Vətən Partiyasının sədri Akif Nağı isə bildirdi ki, maliyyə hesabatının verilməsi qanunvericiliyin tələbi olduğu üçün normal qarşılanmalıdır:** **“Bizim hesabımızda pul yoxdur, amma ötən il də, bu il də maliyyə hesabatı vermişik. Sıfırlanmış variantla hesabat verilir. Biz də bu cür etdik. Bir az çətin qəbul elədilər. Audit də yoxladı və arayış verdi. Bunun əsasında hesabat təqdim etdik. İstərdik ki, pro**sedur yüngülləşdirilsin. Qanunda belədir ki, davamlı şəkildə maliyyə hesabatı verilməyəcəksə, partiyanın bağlanması məsələsi qaldırıla bilər. "Mənim maliyyə əməliyyatım olmayıb, ona görə hesabat vermirəm, verməməliyəm" yanaşması düzgün deyil. İnad göstərmək və problem yaratmaq yanlışdır".

Xatırladaq ki, partiyaların bəzilərinin maliyyə hesabatlarını təqdim etməməsi problemi hər il yaşanır. Ötən il bu problem yaşanan zaman Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov illik maliyyə hesabatlarını təqdim etməyən siyasi partiyaların qeydiyyatının ləğv edilməməsinin səbəbini açıqlamışdı: “İllik maliyyə hesabatı verməyən siyasi partiyaların qeydiyyatının ləğv olunması məsələsi qaldırıla bilər. Buna səlahiyyətimiz çatır. Hesabat verməyən siyasi partiyanın varlığı ilə yoxluğunun bizim üçün bir fərqi yoxdur. Amma Ədliyyə Nazirliyi qarşısında partiyanın qeydiyyatının ləğvi məsələsi qaldırılsa, hamı deyəcək ki, Azərbaycanda siyasi partiyanın qeydiyyatı ləğv edildi”.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

Yeni MÜSAVAT
N 54 (8427) 29 mart 2024

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Ekologiya və ətraf mühitin mühafizəsi**

# Su hövzələrimizi kimlər terror edir?

## İldə 12 milyard kubmetr çirkli su Xəzərə axıdılır - bizi gözləyən təhlükə

**Azərbaycanda əhalinin içməli suya olan tələbatını ödəmək üçün potensial baxımdan kifayət qədər yeraltı su ehtiyatı yoxdur. Respublikanın yerüstü su hövzələrinin də çirklənmə dərəcəsi yüksəkdir. Bu problem həm də qonşu ölkələrdən gələn çayların orada çirklənməsi ilə bağlıdır.**



**Xəzərə il ərzində nə qədər çirkli su axıdılır?**

Əsas təbii su hövzəsi olan Xəzər dənizinə bütün mənbələrdən ildə təxminən 12 mlrd. kub.m çirklənmiş sular axıdılır ki, bunun da 80 faizi Rusiyanın payına düşür. Azərbaycan ərazisindən isə dənizə hər il 250 mln. kub.m-dən artıq çirkli su axıdılır. Nəticədə Bakı buxtasında 60 mln. kub.m-dən çox çirkləndirici maddələr toplanıb.

Kürün suyunun 74 %-i isə Gürcüstan və Ermənistan ərazilərindən formalaşır və həddən artıq çirklənməyə məruz qalır. Hesablamalar göstərir ki, Kür çayı hövzəsinə Ermənistandan (Arazla) ildə orta hesabla 300 mln.kub.m, Gürcüstandan 265 mln.kub.m, Azərbaycandan isə 25 mln.kub.m çirklənmiş su atılır və nəticədə Kür çayı suyunun mis, sink, fenol, neft məhsulları və s. zərərli maddələrlə həddən artıq çirklənməsi müşahidə edilir.

Bundan başqa, təmizlənməmiş təsərrüfat-məişət çirkab suları ilə çaya ildə 40 min ton üzvi maddələrin axıdılması oksigenin biokimyəvi istifadəsinin kəskin artmasına səbəb olur. Kür çayında fenolların miqdarı normadan 10 dəfə, karbohidrogen isə 36 dəfə artıqdır.

**Məişət və sənaye suları - su hövzələrini onlar çirkləndirir**

Araşdırmalar üzə çıxıb ki, Azərbaycanda su hövzələrinin çirklənməsinin əsas mənbəyi məişət və sənaye sularıdır. Sənaye suları əsasən Abşeron yarımadasında və ona yaxın olan sahilboyu ərazilərdə müşahidə olunur. Bir çox köhnə neft çıxarılan mənbələrdə də çirklənmələr müşahidə olunmaqdadır. Bunlar əsasən Xəzər dənizinin çirklənməsinə səbəb olur. Çirklənmələr istifadə etdiyimiz məişət sularında da müşahidə edilir. Bakı şəhəri ərazisində olan bir çox qəsəbələr mərkəzləşdirilmiş kanalizasiya xətlərinə qoşulmayıb və buna görə də həmin ərazilərdən gələn sular Xəzər dənizə tökülür. Əksər rayon yerlərində də suların çirklənməsi baş verir. Çayboyu tikilən evlərdə kanalizasiya sistemləri olmadığı üçün bütün axıntılar çaylara buraxılır. Bundan əlavə, bölgələrdə fəaliyyət göstərən bir çox turizm və istirahət mərkəzləri var ki, kanalizasiya xətləri mövcud deyil. Bunun nəticəsində də həmin ərazilərdəki su hövzələri yararsız vəziyyətə düşür.

Çirklənmədən ən çox şirin su mənbələri zərər çəkir. Məişətdə, texnikada və kənd təsərrüfatında işlənən sular çayların və şor olmayan göllərin suyudur. Qeyd edək ki, hazırda bir çox ölkələrdə içməli su ticarət obyektinə çevrilib. Avropanın Almaniya, Niderland, Danimarka kimi inkişaf etmiş ölkələri içməli suyu satın alırlar. Suyun çirklənməsi onda həll olmuş oksigenin miqdarının azalmasına da səbəb olur. Oksigenin azlığı isə suda yaşayan bitkilər və heyvanların həyat fəaliyyətini çətinləşdirir, biokimyəvi proseslərin normal gedişi üçün əlverişli olmayan mühit yaradır. Təbii suların neft və neft məhsulları ilə çirklənməsi daha ağır nəticələr verir. Neft suda yaşayan canlı aləm üçün kəskin zəhər mənbəyidir.

**Suyun çirklənməsinin əsas səbəbləri bunlardır**

**1. Tullantı suları.** Sadə dillə desək, bu, kanalizasiyaya tökülən sulardır.

Çirkab sular insan tullantıları, kir, yuyucu vasitələr və yağış sularının qarışığıdır. Nəticədə bir qayda olaraq, çaylara və dənizlərə axıdılan çirkli və zəhərli bir mayedir. Əsas problem isə ondan ibarətdir ki, məişət tullantı sularının tərkibində müxtəlif kimyəvi maddələr var (yuyucu vasitələr). Canlı su orqanizmlərinə əsas zərər verənlər məhz onlardır.

**2. Sənaye tullantıları.**

Onlar müxtəlif səbəblərdən su obyektlərinə düşürlər. Elə olur ki, sənaye tullantıları məqsədli şəkildə çaylara və dənizlərə tökülür (onlardan qurtulmağın ən asan, lakin ən zərər yolu budur). Və bəzən suya tullantılar səsəbindən təmiz su təchizatında müxtəlif qəzalar və ya sızmalar olur.

**3. Təsərrüfatlar.**

Sahələrdə istifadə olunan gübrələrdən su hövzələrinə xeyli ziyan dəyir. Bu, torpağın üst qatında olan kimyəvi və üzvi gübrələrin yağışla su hövzələrinə yuyulması (həmçinin yeraltı sulara daxil olması) səbəbindən baş verir. Amma onlar qida təminatçısı olduqları üçün əkinçilikdən imtina etmək mümkün deyil.. Beləliklə, bu problemlə bağlı edə biləcəyiniz heç bir şey yoxdur.

**4. Yağ sızması.**

Təəssüf ki, bunlar çox tez-tez olur. Bəzi məlumatlara görə, təkcə Amerikada hər il 10.000-dən çox neft sızması baş verir. Və su hövzələrinə daxil olan neft məhsulları canlı orqanizmlərə çoxlu mənfi təsir göstərir.

**5. Bərk tullantılar.**

Dünyada bir növ zibillik kimi xidmət edən çoxlu su anbarları var. Oraya müxtəlif tullantılar atılır ki, onlar da su anbarlarının səthinə külli miqdarda yığılır. Bu səbəbdən günəş işığının daxil olmasına mane olur ki, bu da öz növbəsində bu ekosistemlərdə baş verən bir çox proseslərin pozulmasına gətirib çıxarır.

**6. Termal çirklənmə.**

Bu bənd istilik və atom elektrik stansiyalarının istismarı nəticəsində əmələ gələn isti suyun su anbarlarına axıdılmasına aiddir. Tərkibinə görə su eyni su anbarlarından götürüldüyü üçün heç bir təhlükə törətmir, lakin onun yüksək temperaturu mənfi təsir göstərir. Suyun temperaturunun artması səbəbindən bir çox proseslər sürətlənir ki, bu da müxtəlif problemlərə səbəb olur. Belə su anbarlarında canlıların kütləvi şəkildə məhv olması və yosunların sürətlə çoxalması müşahidə olunur.

**7. Atmosferin çirklənməsi.** Planetimizin atmosferində çoxlu çirkləndiricilər var. Su obyektlərinə də zərərli təsir göstərirlər.

Ən böyük zərəri kül, his və müxtəlif qazlar verir. Əsasən insanların sənaye fəaliyyəti ilə əlaqədar olaraq atmosferdə çirklənmələr olur. Suya girdikdən sonra kimyəvi reaksiyalar baş verir, bunun nəticəsində konsentrasiya edilmiş turşular əmələ gəlir.

Həmçinin sənaye fəaliyyətinin məhsulları su ilə atmosferdə reaksiya verə bilər ki, bu da çirkli yağışlara səbəb olur, bununla da su obyektlərinə böyük zərər verir.

**Suyun çirklənməsinin nəticələri**

Dünya artıq şirin su qıtlığını yaşayır (əsasən ekvatora yaxın bölgələrdə). Suyun çirklənməsi vəziyyəti daha da ağırlaşdırır. Bütün bunlar çoxlu sayda insan üçün şirin su çatışmazlığı ilə təhdid edir. Və nəticədə susuzluqdan ölənlərin sayında artım baş verir.

**Nəticə**

**Suyun çirklənməsi bəşəriyyət üçün ciddi problemdir, lakin onun həlli üçün bir çox yollar var:**

** Təbii ehtiyatlarla daha diqqətli davranmağı öyrənmək,*

** Daha təkmil su təmizləmə mexanizmlərinin yaratmaq,*

** Sənayedə tullantısız texnologiyaların tətbiqi, təmizlənmiş tullantı sularının təkrar istifadəsi (məsələn, kənd təsərrüfatında) və s.*

Bu problemlə məşğul olmaq mümkündür və lazımdır. Və elmin bir yerdə dayanmadığını nəzərə alsaq, bu mübarizənin nəticəsini görəcəyimizə ümid etmək olar.

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Sevinc TELMANQIZI**

# Qızdırmalı virusun ölkəmizdə yayılma riski

## Həkim deyir ki, Marburq təhlükəlidir, amma yayılma ehtimalı azdır, çünki...




**Xəbər verdiyimiz kimi, alimlər Marburq virusuna yoluxmaların artması ilə bağlı xəbərdarlıq edirlər.**

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatlarına görə, Marburq virusu yoluxduğu insanların təxminən yarısını öldürə bilər və keçmiş epidemiyada yoluxmuşların 88 %-i ölüb.

Bu, hemorragik virus xəstəliklər qrupuna daxildir. Bu xəstəliklərdə qansızmalar müşahidə edilir, yüksək qızdırma olur. Daxili orqanlara qansızmalar, dəridə səpkilər müşahidə edilir, xəstəlik ümumilikdə ağırgedişli hesab olunur. Alimlər bildirirlər ki, Marburq qızdırmasında ölüm nisbəti 90 faizədək çata bilər. İnkubasiya dövrü 7 gündür, sonra qızdırma qəfildən 40 dərəcəyə qədər qalxır.

Maraqlıdır, yenidən aktivləşən bu virusun ölkəmizə gəlmə ehtimalı varmı?

Qeyd edək ki, 2022-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı Qanada Marburq virusu ilə bağlı epidemiya elan etmişdi. Marburq virusunun səbəb olduğu xəstəlik, birdən yüksək hərarət, şiddətli baş ağrısı və zəifliklə başlayır. Əzələ ağrısı müşahidə edilir. Xəstəliyin üçüncü günündə adətən şiddətli ishal, qarın ağrısı, ürəkbulanma və qusma müşahidə olunur. İshal pisləşməyə davam edir, maye itkisi və bir çox metabolik pozğunluqlar baş verir. Xəstələrdə simptomların başlamasından 2-7 gün sonra dəri töküntüləri müşahidə edilir. Ölümcül hallarda bədənin birdən çox hissəsində (diş əti, vagina, bağırsaq) qanaxma müşayiət oluna bilər. Mərkəzi sinir sistemində qaynaqlanan qarışıqlıq və çaşqınlıq görülür. Ölüm adətən 8-9 gündən sonra baş verir.

Marburq virusundan indiyədək - 1967-ci il Almaniyada 29 hadisə, 7 ölüm, 1998-2000-ci illərdə Konqo Demokratik Respublikasında 154 hadisə, 128 ölüm, 2005-ci ildə Anqolada 374 hadisə, 329 ölüm, 2012-ci il Uqandada 15 hadisə, 4 ölüm, 2017-ci il Uqandada 3 hadisə, 3 ölüm, 2022-ci il Qanada 2 ölüm olub.

**Mövzu ilə bağlı infeksionist-hepatoloq Mərdan Əliyev "Yeni Müsavat"a deyib ki, bu xəstəlik təhlükəlidir, qızdırma, səpgilərlə müşahidə edilir:** "Qansızmalarla müşahidə olunan qızdırmadır. Yüksək qızdırma olur, daxili orqanlara qansızmalar verir və dəri səpgiləri olur. Xəstəliyin letallığı da yüksəkdir. Bu, daha çox endemik xəstəlik hesab olunur. Avropada, Afrikada müşahidə oluna bilir. Amma bu, koronavirusda, qızılcada olduğu kimi hava-damcı yolu ilə, yeni tənəffüs yolu ilə yoluxmur. Ona görə bu virusun sürətli yayılması baş vermir. Bu ancaq kontakt yolu ilə keçir. Dərinin dəriyə təmas etməsi və cinsi əlaqə zamanı yoluxması var. Yəni sıx təmas yolu ilə yoluxduğu üçün bundan qorunmaq daha rahatdır. Belə xəstəliklər sürətli yayılmır. Təbii ki, müayinə və müalicələrin olması vacibdir. Xüsusən də çox yayılan ölkələrdən bura gələn vətəndaşlar ehtiyac olarsa, yoxlanıla bilir. Amma hazırda hansısa ölkədə bunun yüksək yoluxma halı yoxdur. Sporadik şəkildə rast gəlinir. Sürətli yoluxma ehtimalı olmadığına görə o ölkələrdən bizə gəlmə ehtimalı da çox deyil".

❑ **Afaq MİRAYİQ**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 54 (8427) 29 mart 2024

# Mərkəzi Bankın faiz qərarı - manatın taleyi...

## Uçot dərəcəsi 7,5 faizə endirildi

**Azərbaycan Mərkəzi Bankının İdarə Heyətinin martın 28-də keçirilən iclasında uçot dərəcəsinin 7.75 faizdən 7.5 faizə, faiz dəhlizinin yuxarı həddinin 8.75 faizdən 8.5 faizə endirilməsi, faiz dəhlizinin aşağı həddinin isə 6.25 faiz səviyyəsində dəyişməz saxlanılması haqqında qərar qəbul edilib.**

Mərkəzi Bankdan "Yeni Müsavat"a verilən məlumata görə, bu qərar faktiki və proqnozlaşdırılan inflyasiyanın hədəflə (4±2%) müqayisəsi, inflyasiya gözləntilərinin stabilləşməsi, risk balansında baş verən dəyişikliklər nəzərə alınmaqla verilib. Proqnozlaşdırılan inflyasiyanın hədəfdə qalmasını nəzərə almaqla faiz dəhlizinin yuxarı həddinin və uçot dərəcəsinin azaldılması monetar şəraitin yumşalmasına yönəldilib. Aşağı həddin dəyişməz saxlanılması isə faiz dəhlizinin eninin optimallaşdırılmasına xidmət edir. Faiz dəhlizinin bu parametrləri müəyyənləşdirilərkən onların banklararası pul bazarındakı faizlərə təsir miqyası da nəzərə alınıb.

Tənzimləyici bildirir ki, İdarə Heyətinin uçot dərəcəsinə həsr olunmuş yanvarın 31-də keçirilən ötən iclasından bəri illik inflyasiya tempi azalmaqda davam edib: 2024-cü ilin fevralında 12 aylıq inflyasiya 0.8 faiz, 12 aylıq baza inflyasiya isə 1.4 faiz təşkil edib. İllik ərzaq deflyasiyası 0.3 faiz, qeyri-ərzaq inflyasiyası 1.4 faiz, xidmətlər inflyasiyası isə 2.3 faiz olub.

**Mərkəzi Bankın açıqlamasına görə, illik inflyasiyada azalma xarici və daxili amillərin təsirləri ilə baş verir:** "Dünya Bankının məlumatına əsasən, əmtəə qiymətləri indeksi 2024-cü ilin fevralında illik əsasda 7.3 faiz, o cümlədən enerji qiymətləri üzrə 7.5 faiz enib. ABŞ-ın Enerji İnformasiya Agentliyinin (EİA) məlumatına görə, 2024-cü ilin II rübündən neft ehtiyatlarının artması proqnozu qiymətlərə təsir edən əsas amillərdən biri olacaq. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatına görə isə ərzaq qiymətləri indeksi fevralda illik əsasda 10.5 faiz azalıb. Manatın nominal effektiv məzənnəsinin (2023-cü ildə 19.3 faiz və 2024-cü ilin ilk 2 ayında 1.8 faiz) bahalaşması idxal inflyasiyasının azalmasına əlavə töhfə verib".

**2024-cü ilin əvvəlindən bəri Azərbaycanın valyuta bazarında tarazlıq qorunub. Belə ki, ilin ötən dövründə Mərkəzi Bank tərəfindən təşkil edilən valyuta hərraclarının bir neçəsində valyutaya tələb artıb. Buna səbəb dövlət investisiyaları və özəl sektorun istehlakının aktivləşməsi nəticəsində idxalın maliyyələşməsinin genişlənməsidir:** "2024-cü ilin 2 ayında qeyri-neft investisiya qoyuluşları ötən ilin müvafiq dövrü ilə müqayisədə 17.1 faiz artıb ki, bunun da əhəmiyyətli hissəsi daxili mənbələr hesabına maliyyələşib. Bu, qeyri-neft idxalı üzrə qabaqcadan ödənişlərin artması ilə müşayiət olunub. Qeyd olunanlar idxal mənşəli valyuta tələbinin artımını təsdiqləyir. Ümumilikdə, valyuta bazarı profisitli tədiyə balansı şəraitində fəaliyyət göstərir. 2023-cü ilin yekunu üzrə tədiyə balansının cari əməliyyatlar hesabında ümumi daxili məhsulun (ÜDM) 11.5 faizi səviyyəsində profisit olub. Ticarət balansında 2024-cü ilin ilk 2 ayında 2.3 milyard ABŞ dolları məbləğində profisit formalaşıb. Proqnozlara əsasən, mövcud meyllərin davam edəcəyi təqdirdə 2024-cü ilin yekunu üzrə də cari əməliyyatlar hesabının profisitli olacağı (yanvar proqnozu: 7-8 milyard ABŞ dolları) gözlənilir. Bununla yanaşı, fevralda depozit dollarlaşmasının azalmaqda davam etməsi yığım vasitəsi kimi manata inamın qorunduğunu göstərir. Belə ki, fevralda maliyyə sektoru çıxılmaqla hüquqi və fiziki şəxslərin depozitlərinin dollarlaşması səviyyəsi yanvar ayına nəzərən 1.3 faiz bəndi, ötən ilin fevral ayı ilə müqayisədə isə 9 faiz bəndi azalıb".

**Tənzimləyici bildirir ki, pul siyasəti alətləri avtonom amillərin monetar şəraitə təsirlərinin neytrallaşdırılmasına xidmət edir:** "Açıq bazar əməliyyatları və daimi imkan alətlərindən aktiv istifadə pul bazarında milli valyutada banklar arasında həm təminatsız, həm də təminatlı bağlanan əqdlərin orta çəkili faiz dərəcələrinin Mərkəzi Bankın faiz dəhlizi daxilində hərəkətini təmin edib. Mart ayının ötən dövründə 1 günlük təminatsız əməliyyatlar üzrə orta faiz (1D AZIR) 6.52 faiz (fevralda 6.29 faiz) olmaqla faiz dəhlizinin daxilində formalaşıb. Pul bazarındakı faizlərin digər faizlərə, o cümlədən depozit və kredit faizlərinə təsirinin gücləndirilməsi istiqamətində islahatlar davam etdirilir".

Mərkəzi Bankın İdarə Heyətinin ötən iclasından bəri inflyasiyanın risk balansında əhəmiyyətli dəyişiklik baş verməyib. Qurum geosiyasi gərginliklərin davam etməsi, mühüm beynəlxalq ticarət yollarında yaranan maneələr, eləcə də iqlim dəyişikliklərinin dünya bazarında əmtəə qiymətlərini və tərəfdaş ölkələrdə inflyasiyanın dəyişkənliyini yüksəldə bilməsi ehtimalını xarici mənşəli başlıca inflyasiya riskləri hesab edir. Bundan əlavə, inflyasiyanı artıra biləcək başlıca daxili risk xərc amillərinin aktivləşməsi də mümkündür. Bura həmçinin fiskal əməliyyatların pul təklifinə cari ildə də artırıcı təsiri də daxildir: "Ümumilikdə, inflyasiyanın artırıcı və azaldıcı riskləri bir-birini tarazlaşdırır. 2024-cü ilə inflyasiya proqnozu (yanvar proqnozu: 5.3 faiz) dəyişməz saxlanılıb. Mövcud şərtlərin dəyişməz qalacağı təqdirdə 2024-cü ildə illik inflyasiyanın hədəf daxilində (4±2%) qalacağı gözlənilir. Təhlillər göstərir ki, ilin qalan dövründə illik inflyasiya proqnozunun azaldılma istiqamətində dəyişdirilməsi ehtimalı var".

Mərkəzi Bankın pul siyasətinin yumşaldılması ilə bağlı növbəti qərarları inflyasiyanın azalma meylinin davamlılığından, xarici və daxili mənşəli təklif və tələb amillərinin dinamikasından asılı olacaq. Qeyd olunan risklərin reallaşması halında pul siyasətinin ilin qalan dövründə yumşaldılması üzrə pauzanın götürülməsi imkanlarına baxıla bilər. Qarşıdakı dövrdə də makroiqtisadi göstəricilərin və faiz dəhlizinin parametrlərinin faizlərə ötürücülüyü üzrə monitorinq aparılacaq.

Xatırladaq ki, yanvarın 31-də Mərkəzi Bankın İdarə Heyətinin qərarı ilə uçot dərəcəsi 8 faizdən 7.75 faizə, faiz dəhlizinin aşağı həddi 6.5 faizdən 6.25 faizə, faiz dəhlizinin yuxarı həddi isə 9 faizdən 8.75 faizə endirilmişdi.

**İqtisadçı-alim, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramovun fikrincə, uçot dərəcəsinin endirilməsi inflyasiya səviyyəsinin azalması və bu meyillərin hədəf diapazonu daxilində formalaşması, həmçinin makroiqtisadi stabilliyin qorunması ilə bağlıdır:** "2023-cü ilin noyabr ayından başlayaraq Mərkəzi Bank uçot faiz dərəcəsinin azaldılması ilə bağlı qərarlar qəbul edib. Noyabrın 2-də faiz dərəcəsini 9-dən 8.5 faizə endirən Mərkəz Bank ötən ilin son ayında da əlavə 0.5 faizlik azalmaya getmişdi.



Mərkəzi Bankın son qərarında iki mühüm məsələ diqqəti çəkir: faiz dəhlizinin aşağı həddinin dəyişdirilməməsi və depozit və kredit faizlərinə təsirinin gücləndirilməsi istiqamətində islahatların davam etdirilməsi. Faiz dəhlizinin aşağı həddini dəyişdirməməklə Mərkəzi Bank öz notlarının optimal gəlirliyini qoruyub saxlamağa çalışır. Dünən də həmin notların son faiz dərəcəsi üzrə cüzi olsa da artım qeydə alınıb. Bununla baş bank qiymətli kağızlar bazarındakı mövqeyini gücləndirməyə və sektor iştirakçılarından daha çox vəsait cəlb etməyə çalışır. Bu ondan xəbər verir ki, Mərkəz Bank öz notlarının son faiz dərəcələri üzrə kəskin azalmalara getməyi hədəfləmir".

**Millət vəkili bildirir ki, hələlik uçot dərəcəsinin kredit faizlərinə ciddi təsiri yoxdur:** "Etiraf etmək lazımdır ki, bu təsirlərin müşahidə olunması üçün hələ bir müddət lazımdır. Bu, heç də Mərkəzi Bankın mövcud fəaliyyəti ilə bağlı deyil. Amma adətən digər ölkələrdə mərkəzi banklar uçot faiz dərəcəsini azaldan zaman depozit və eləcə də kredit faizlərində də enişlər müşahidə edilir. Azərbaycan Mərkəzi Bankının son dövrlər uçot faiz dərəcəsinin azaltmasına rəğmən, əksinə, depozit faizlərində artım müşahidə olunmaqdadır. Əvvəllər 5.0-6.0 faiz dərəcəsi ilə depozit qəbul edən sistem əhəmiyyətli banklarda müddətindən asılı olaraq depozit faizləri 8.0-9.5 faiz arasında dəyişir. Depozit faizlərindəki artımlara Blumberq platformasında banklar arasında milli valyutada bağlanan əqdlərin sayı və eləcə də onların ortaçəkili faiz dərəcəsi də təsirsiz ötüşməyib. Belə ki, Mərkəzi Bank bankların passiv aktivlərinin bir hissəsini öz notları vasitəsilə cəlb edə bilib və bu da banklarda əlavə vəsaitlərə tələb yaradıb. Bununla belə, banklardan kənarda nağd pulun həcmi də kifayət qədər böyükdür. 15 milyard manatlıq M0 bankları daha aktiv kampaniyalara sövq edir. Bütün hallarda isə Mərkəzi Bankın son qərarı kredit faizlərində ciddi dəyişikliyə səbəb olmayacaq".

Onu da qeyd edək ki, beynəlxalq iqtisadi statistika portalı olan "Trading Economics" 2024-cü ildə Azərbaycanda orta illik inflyasiyanı 5 faiz səviyyəsində proqnozlaşdırır. Proqnozlara əsasən, birinci rübdə orta illik inflyasiya 1,8 faiz, ikinci rübün sonuna 4,4 faiz, üçüncü rübün sonuna 5,3 faiz, dördüncü rübün sonuna isə 5 faiz səviyyəsində gözlənilir.

Birləşmiş Millətlər Təşkilatının (BMT) proqnozlarına görə, bu il Azərbaycanda orta illik inflyasiya 5,9 faiz təşkil edəcək, 2025-ci ildə 3,9 faizədək azalacaq.

Beynəlxalq Valyuta Fondu (IMF) bu il Azərbaycanda orta illik inflyasiyanın 4,7 faizə qədər azalacağını, 2025-ci ildə 5 faiz olacağını proqnozlaşdırır.

Dünya Bankının qiymətləndirmələrinə görə, Azərbaycanda orta illik inflyasiya 2024-cü ildə 5,8 faiz, 2025-ci ildə 5,2 faiz təşkil edəcək.

Niderlandın "ING Group" şirkəti 2024-cü il üçün Azərbaycanda orta illik inflyasiyanın 4,4 faiz, 2025-ci ildə 5,5 faiz olacağını proqnozlaşdırıb.

Azərbaycan İqtisadiyyat Nazirliyi isə 2024-cü ildə ölkədə illik inflyasiyanın 5,3 faiz, 2025-ci ildə 4,9 faiz olacağını gözləyir.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 54 (8427) 29 mart 2024

Mart

## Bunları bilirsinizmi?

* Saat icad edilməmişdən əvvəl müəyyən bir vaxt ərzində yanmaya hazırlanmış şam saatları var idi. Zəng qurmaq lazım olduğu zaman şama iki tərəfdən mıx keçirilir, şam o səviyyəyə qədər yanır və mıxlar bir-birinə dəyərək səs çıxarırdı.
* Əgər ədvalı bir şey yedikdən sonra bir çay qaşığı şəkər yesəniz, o sizin hərarətinizi azaldacaq.
* Dalğıcların üzərindəki su qırmızı və sarı işığı filtrləyərək hər şeyin mavi tonda olmasını təmin edir . Süni bir işıq qaynağıyla dalmaq isə su altının gerçək rənglərini görmənizi təmin edə bilər .
* Bütün qütb ayıları solaxay olur.
* Fillər bellərindəki dəri qırışıqlıqlarını ağcaqanadları öldürmək üçün istifadə edirlər.
* Bir qaba çoxlu fıstıq yığsanız,bir müddət sonra özü partlayacaqdır.
* Paraqvayda hər iki tərəfdə qeydə alınaraq qan bağışlamaq üçün duel etməkləri sərbəstdir.
* Rusiyanın gəlirinin 10%i vodka satışlarının payına düşür.
* Çində uşaqlar anadan olduğu andan 1 yaşında sayılırlar.
* Arıların başlarında 3 kiçik, ön tərəfdə isə 2 böyük göz olmaqla, 5 gözləri var.
* Zürafə dili ilə qulağını təmizləyə bilir.
* Kenquru sürüsü ingiliscə “mob” yəni “şəbəkə” adlandırılır.
* İnsanın burnu və qulaqları ömrü boyu böyüdüyü halda, gözləri heç vaxt böyüməz.
* Bir ilbiz 1 millik yolu 115 günə gedə bilər.
* Bir Amerikan dolları bankotunun ortalama ömrü 18 aydır.
* Tək yumurta əkizi olan iki qadın, tək yumurta əkizi olan iki kişi ilə evlənsə onların uşaqları genetik olaraq qardaş olur.
* Çilidəki Atacama çölünə bu günə qədər yağış yağmayıb.
* Dünyanın ən uzun ağacı olan “Hyperion”nun yeri bir neçə elm adamından başqa heç kimsə tərəfindən bilinmir.
* Timsahlar dillərini bayıra çıxara bilmirlər.
* Bir qurtum dəniz suyunda milyonlarla bakteriya, yüz minlərlə bitki mənşəli plankton və on minlərlə heyvan planktonları mövcuddur.
* Pişiklər şirin şeylərin dadını bilmirlər.

# D vitamini almaq üçün Günəşin altında nə qədər qalmalıyıq?



**Avstraliyanın Kvinslend Universitetindən dermatoloq Keti Li insan orqanizminə D vitamininin təbii şəkildə düzgün qəbulu barədə danışıb.**

Dermatoloqun sözlərinə görə, isti yayda 09:00-15:00 aralığında yüngül geyimdə Günəş altında beş dəqiqə qalmaq orqanizmin bu maddəyə gündəlik tələbatını ödəməyə imkan verir. Qışda eyni miqdarda D vitamini istehsal etmək təxminən bir saat çəkə bilər. Həkim ultrabənövşəyi şüalanmanın da orqanizmdə D vitamini istehsal etməsi üçün zəruri olduğunu bildirib.

Li xəbərdarlıq edib ki, Günəş altında uzun müddət qalmaq bədənin D vitamini istehsalını mütləq şəkildə artırmır. Bununla belə, ultrabənövşəyi radiasiyaya məruz qalma dəri üçün həqiqətən zərərlidir. Dermatoloqun fikrincə, açıq rəngli dərisi olan insanlar kanserogen olan Günəş işığının yaratdığı DNT zədələnməsinə daha çox həssasdırlar.

## Dünyada soyutma tələb etməyən ilk almaz yarımkeçirici yaradılıb

**Elektron və Optik Materialların Tədqiqat Mərkəzinin yapon alimləri dünyanın ilk almaz əsaslı tranzistorunu hazırlayıblar. Cihaz çox yüksək temperaturda işləməyə qadirdir və silikon analoqları ilə müqayisədə praktiki olaraq heç bir soyutma tələb etmir. Mütəxəssislərin fikrincə, almaz yarımkeçirici 300°C-dən yuxarı temperaturda işləyə bilər, silikon əsaslı prosessorlar üçün isə limit 100°C-dir.**

Layihə çərçivəsində alimlər iki “fosfor qatqılı almaz təbəqəsi” olan tranzistor yaradıblar. Fosforun keçiriciliyi artırmaq üçün təbəqələrə bir element əlavə etmək lazımdır. Beləliklə, adi çipdə silikon təbəqəni əvəz edən sərbəst elektronları daşıyan n-kanallı təbəqə əmələ gəlir. Alimlərin fikrincə, onların yaratdığı cihaz mövcud analoqlar arasında həddindən artıq yüksək temperaturda ən yüksək dayanıqlığı və keçiriciliyi təmin edib.

Qeyd edək ki, almaz yarımkeçiricilər silikon yarımkeçiricilərlə müqayisədə daha geniş diapazona malikdirlər.

## ABŞ-da test zamanı bir milyon dollarlıq superkar darmadağın oldu

**ABŞ-ın “Gunther Werks” şirkəti tərəfindən “Laguna Seka” trekində həyata keçirilən sınaqlar zamanı 750 at qüvvəsinə malik yeni restomod - “Porsche 993"ün prototipi məhv olub. Bu barədə şirkətin özündən xəbər verilib. Bildirilib ki, avtomobilin qiyməti təxminən bir milyon dollardır. Qeyd edək ki, restomod klassik avtomobilin tarixi görünüşünün maksimum saxlanılması şərti ilə digər texniki xüsusiyyətlərinin modernləşdirilməsidir.**

## İspanağın əvəzolunmaz faydaları



**İspanaq orqanizmdə iltihabı azaldır və yaşlanma prosesini ləngidir. Bu barədə Arizona Dövlət Universitetinin alimləri apardıqları tədqiqatlardan sonra bildiriblər. Onların araşdırmalarının nəticələri “Food & Function” jurnalında dərc olunub. Məqalədə deyilir ki, bu məhsul həm də lutein və “A”, “C” və “K” vitaminləri ilə zəngindir. Bu qida komponentləri gözün normal fəaliyyətini, rəng qavrayışını və görmə kəskinliyini təmin etmək üçün lazımdır, həmçinin qanın laxtalanmasını tənzimləyir, dərinin, sümüklərin və ürəyin sağlamlığını qoruyur.**

Alimlər ispanağın təbii antioksidant xüsusiyyətlərə malik olduğunu da qeyd ediblər. Mütəxəssislər ispanağın bişirilmə üsulunun onun qida dəyərinə təsir etdiyini vurğulayıblar. Onların sözlərinə görə, bitkinin yarpaqlarını az yağda qızartmaq, çiy halda yemək və ya smuzilərə əlavə etmək daha yaxşıdır.



## Britaniya rekord sayda miqrant axını ilə üzləşib

**Bu ilin ilk üç ayında İngiltərəyə rekord sayda qeyri-qanuni miqrant gəlib. Onlar hava qayıqları ilə La-Manş boğazından keçiblər. Bu barədə Böyük Britaniyanın Daxili İşlər Nazirliyi rəsmi məlumat yayıb. Ümumilikdə, ilin əvvəlindən Böyük Britaniyaya La-Manş boğazı ilə qeyri-qanuni yollarla 4600 insan gəlib ki, bu da 2022-ci ilin birinci rübünün göstəricilərini üstələyir. Bir il əvvəl, eyni dövrdə onların sayı 3700 nəfər olub.**

Ümumilikdə, 2023-cü ildə La-Manş boğazı ilə Böyük Britaniyaya gələn qeyri-qanuni miqrantların sayı 29 400 nəfər təşkil edib.

## Oruc tutmaq xərçəng hüceyrələrinin qarşısını alır



**Oruc tutmaq immun sistemini yaxşılaşdırır, orqanizmdəki toksinləri aradan qaldırır, iltihabı azaldır, xərçəng hüceyrələrinin yayılmasını ləngidir.**

Türkiyəli həkim Özkan Akyolun mövzu ilə bağlı araşdırmasını təqdim edir. O, Ramazan ayının sağlamlığa iki cəhətdən faydalı olduğunun elmi şəkildə sübuta yetirildiyini bildirib: “Oruc tutmaq bir tərəfdən həzm sisteminə, digər tərəfdən insan psixologiyasına faydalıdır. Orqanizmdə toplanmış yağlar oruc zamanı yağ hüceyrələri vasitəsilə parçalanır. Sağlam arıqlama yığılmış yağların parçalanması yolu ilə baş verir. Ancaq imsak və iftarda az kalorili qidalanma ilə buna nail olmaq olar. Elmi araşdırmalar oruc və insulin sağlamlığı arasındakı əlaqəni ortaya qoyur. Tədqiqat sübut edib ki, oruc tutarkən hüceyrələr daha çox qlükoza qəbulu ilə bağlı siqnal göndərir. Bu da insulinin normallaşmasına müsbət təsir göstərir”.

Mütəxəssis qeyd edir ki, orucun həzm sisteminə də faydası var. Oruc tutmaq həzm sisteminin dincəlməsinə kömək edir. Müntəzəm oruc tutmaq metabolik sağlamlığa faydalıdır, həmçinin bağırsaqların normal fəaliyyətinə kömək edir. Az yemək ömrü uzadır və daha uzun yaşamağa kömək edir.

“Oruc bədənimizi yeniləyir. Parkinson və Alzheimer kimi xəstəliklərə qarşı qoruyucu rol oynaya bilir. Elmi araşdırmalar göstərir ki, vəhşi heyvanlar xəstə olduqda qida qəbulunu azaldır. Oruc tutmaq da immun sistemini gücləndirməklə bir çox xəstəlikdən qorunmağa kömək edir və bəzi xəstəliklərin müalicəsini sürətləndirir. Oruc tutmaq orqanizmin ümumi təmizlənməsi üçün faydalıdır. Həzm sisteminin təmizlənməsi dolayı yolla bütün orqanizmi təmizləyir. Qaraciyər və böyrəklərdəki toksinlər təmizlədiyi üçün dəri yenilənir”, - deyə həkim əlavə edib.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lisenziya N: B 114
SAYI: 1.500

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Son dakika” MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.